QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 122 (6322) 13 iyul 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti mövzusunda diplomatiya həftəsinin açılışı olub

İyulun 12-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə “44 günlük...



Bax 3

# Azərbaycana qarşı qərəzli mövqe iflasa məhkumdur



Bax 2

İlham Əliyev:

“Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir”

## YAP Təftiş Komissiyasının növbəti iclası keçirilib



İyulun 12-də Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın...

Bax 4

## Tovuz döyüşləri - böyük qələbəmizin təməli



44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan...

Bax 8

## İkiüzlü diplomatiya - ikili standartlar

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində vəziyyətlə tanış olmaqda nəinki diplomatlar, siyasətçilər...



Bax 13

## “Minsk qrupu vasitəçilik missiyasının beynəlxalq imicinə sarsıdıcı zərbə vurub”



Bax 6

“Azərbaycanın mədəni paytaxtı olan və ümumilikdə Cənubi Qafqazın incisi kimi tanınan Şuşa şəhərinə 46 dövlətin nümayəndəsi səfər etsə də, onların...

## Ukraynanın telekanalı: “Azərbaycan Ordusu Şuşanı yüngül silahlarla və əlbəyaxa döyüşlə azad edib”

Azərbaycan Ordusu artilleriya tətbiq etmədən, sadəcə, yüngül silahlarla və əlbəyaxa döyüşlə Şuşanı işğaldan azad edib. Bunu Ukraynanın nüfuzlu “5 kanal” telekanalının xüsusi müxbiri Şuşadan hazırladığı reportajı zamanı bildirib. Reportajda qeyd...



Bax 3

## Şuşa şəhəri necə alındı?



Maraqlı FAKTLAR

## Mühacir biznesi ifşa olunur: dələduzlar və qurbanlar



Bax 14

## Vüqar Rəhimzadə: ABŞ, Rusiya və Fransa səfirlərinin səfərə qatılmamaları Azərbaycan üçün nəyisə dəyişmir

Bax 7



## ...Ermənistan Rusiyasız “yox olub gedəcək”?



Bax 13

## Rus ekspert: İntiqamdan söhbət belə gedə bilməz. Qarabağ mövzusu bağlıdır



Bax 15

## İtaliya 53 ildən sonra ikinci dəfə Avropa çempionu oldu!




Bax 16

# Prezidentin Mətbuat Xidmətinin məlumatı



İyulun 12-də Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları Tacikistan-Azərbaycan ikitərəfli münasibətlərinin aktual aspektlərini, xüsusən tərəflərin iqtisadi-ticari əlaqələrini müzakirə edərək, son illərdə bu əlaqələrin inkişafının müsbət dinamikasını vurğulayıblar. Tərəflər Əfqanıstanda hazırkı hərbi-siyasi vəziyyətə xüsusi diqqət ayırıblar.

Bununla əlaqədar, Emoməli Rəhmon Əfqanıstanın Tacikistanla həmsərhəd əyalətlərində yaranan həyəcanlı vəziyyət barədə Azərbaycan Prezidentini ətraflı məlumatlandıraraq, MDB-nin cənub sərhədlərində vəziyyətin kəskinləşməsinə görə ciddi narahatlıq ifadə edib.

Tacikistan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Prezidentini onun üçün münasib vaxtda Tacikistana rəsmi səfərə dəvət edib. Azərbaycan Prezidenti dəvəti minnətdarlıqla qəbul edib. Səfərin vaxtı diplomatik kanallarla razılaşdırılacaq.

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı şəhərinin Nəsimi rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

"Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin ləğv olunması üzrə Komitəsinin 80-ci sessiyasında Azərbaycan Respublikası Hökumətinin altıncı dövri məruzəsinin təqdimatında Azərbaycan Respublikasını təmsil edəcək nümayəndə heyətinin tərkibi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev İtaliya komandasının Avropa çempionu adını qazanması münasibətilə İtaliya Prezidenti Sercio Mattarellaya təbrik teleqramı göndərib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu münasibətlə İtaliya Prezidentini və onun simasında dost İtaliya xalqını öz adından və Azərbaycan xalqı adından ürəkdən təbrik edib. Təbrikdə deyilir: "Avropa birinciliyinin bütün oyunlarında yüksək ustalıq, böyük əzmkarlıq, yenilməz iradə nümayiş etdirmiş və öz tarixində ikinci dəfə bu yüksək titulu qazanmış İtaliya futbolçularına ən səmimi təbriklərimizi yetirir, onlara yeni-yeni uğurlar arzulayıram.

Əminəm ki, Azərbaycan ilə İtaliya arasındakı ənənəvi dostluq münasibətlərinin daha da genişlənməsi, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın və strateji tərəfdaşlığımızın dərinləşməsi yolunda səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik. Bu əlamətdar anlarda sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İtaliya xalqına daim rifah və əmin-amanlıq diləyirəm".



# Azərbaycana qarşı qərəzli mövqe iflasa məhkumdur

## İlham Əliyev: "Azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir"

44 günlük Vətən müharibəsi dövründə qazanılan möhtəşəm qələbə Azərbaycanın təkcə döyüş meydanında deyil, siyasi və diplomatik cəbhədə, beynəlxalq arenada böyük üstünlük qazanmasıdır. Bütün bunların bir məntiqi nəticəsi var - Azərbaycana qarşı qərəzli mövqe iflasa məhkumdur. İnkarolunmaz həqiqətdir ki, Azərbaycan bu müddət ərzində reallıqları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb, erməni yalanlarını ifşa edib. Paralel olaraq ölkəmizin ikitərəfli və çoxtərəfli münasibətləri uğurla inkişaf etdirilib, Azərbaycanın dostlarının və tərəfdaşlarının sayı artıb. Həmçinin, Azərbaycanın məqsədyönlü diplomatiyası nəticəsində keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar mühüm qərar və qətnamələr qəbul olunub. Müzəffər Ali Baş Komandanımız martın 20-də Şuşada etdiyi müraciətdə bu məsələlərə toxunaraq deyib ki, biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Dövlətimizin başçısının bildirdiyi kimi, beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik: "Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq". Bəli, 44 gün ərzində haqq-ədalətin bərpasına nail olduq, ərazi bütövlüyümüzü bərpa etdik. Ancaq işğaldan azad edilən Qarabağda erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər ürək ağrıdıb. Və bu gün işğaldan azad olunmuş torpaqlarımız erməni vəhşiliyinin şahididir.

### "Beynəlxalq təşkilatlar gəlsinlər, görsünlər həqiqətləri"

Azərbaycan Prezidenti İlham Əliyev bütün çıxışlarında, müsahibələrində, görüşlərində dönə-dönə vurğulayıb ki, son onilliyində erməni vandallarının torpaqlarımızda törətdikləri vəhşilikləri, tökülən qanları Azərbaycan xalqı heç bir zaman unutmayacaq. Azərbaycan Prezidenti deyib ki, azad edilmiş torpaqlar erməni vəhşiliyinin şahididir: "Dünya tarixində buna oxşar vəhşilik bəlkə də olmamışdır. Gələsən, başqasının torpağında yaşayasan, sonra fürsətdən istifadə edib buradan yerli əhalini qovasan, öldürəsən, yandırasan, soyqırımı törədəsən. Sonra da o xalq ki, sənə qucaq açıb, səni qəbul edib, sənə burada yaşamağa imkan verib, onun tarixi abidəsini bax, bu günə qoyasan. Vəhşilik. Mən deyəndə ki, sanki vəhşi qəbilə keçib buradan, bax, bu mənzərəni nəzərdə tuturam". Bəli, 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində azad edilən torpaqlarımız da şahid olub düşmənin işğalçılıq əməliyyatlarına. Ermənilər nələr etməyiblər ki? Bina və məscidlərimiz dağıdılıb, məscidlərdə heyvan saxlayıblar, müqəddəs abidələrimizi təhqir ediblər. Su elektrik stansiyalarını dağıdıblar. Bu vəhşiliklərin sırası o qədər genişdir ki, sadalamaqla bitmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 16 mart tarixində Şuşa şəhərinə səfəri tarixi hadisələrdəndir. Ona görə ki, milli və sevimli bayram, Novruz bayramı günlərində baş tutan bu səfər xalqımızın qan yaddaşında iz salan ənələrimizin bu gözəl torpaqda reallaşmasına imkan yaratdı. 30 ilə yaxın bir dövrdən sonra gözəl Şuşamız Novruz sevincini yaşadı. Bayram tonqalının şöləsi ucalara qalxdı. Dövlətimizin başçısının qələbə sevincini birə min artıran bayram əhval ruhiyyəsi insanların ovqatını da rövnəqləndirdi. Azərbaycanın qədim yaşayış məskənlərindəm olan Şuşadakı tarixi abidələr sübut edir ki, Azərbaycan xalqının zəngin və dəyərli tarixi var. Buna misal olaraq Şuşa şəhərinin tarixi mərkəzində yerləşən Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi sarayı göstərmək olar. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar. Düşmən torpaqlarımızı zəbt edib, insanları qovub, tarixi abidələrimizi dağıdıb, söküb, vandallıq edib, barbarlıq edib. Dəhşətli burasıdır ki, onlar işğal zamanı Şuşa şəhərinin mərkəzi meydanında yerləşən, XIX əsrə aid Karvansaray tarixmemarlıq kompleksini də dağıdıblar. Şuşa Dövlət Rəsm Qalereyasının binası, Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan Şuşa Xalça Muzeyi də ciddi ziyan görüb.

### Azərbaycan əsgəri dünyaya göstərdi ki, başqasının torpağını zəbt edərək vəhşiliklər törədənlərin aqibəti yalnız məğlubiyyət ola bilər

Heç bir tarixi keçmişi olmayan, lakin böyük xülyalarla işğalçılıq əməliyyatları edən, əlbəttə ki, öz himayədarlarının köməkliyi ilə, insanları öldürən, talançılıq edən və bundan sonra başqasının torpaqlarını da darmadağın edərək özünə "tarixi keçmiş", "abidələr" yaratmağa çalışan məkrli düşmənin istəyi baş tutmadı. 30 ilə yaxın dövrdən sonra Azərbaycan Ordusu, şücaətli əsgərlərimiz düşməni məhv edərək torpaqlarımızı azad etdilər. İllər boyu haray çəkən torpaqlarımız düşmən əsarətindən azad olunduqdan sonra, yurdumuzun ərazi bütövlüyü təmin edildikdən sonra insanlar elə bil ki, dərindən nəfəs ala bildilər. Uzun illər həmsədr dövlətlərin, özü də düşmənin himayədarlarının iştirakı ilə aparılan danışıqların bəhrə vermədiyini hərb yolu ilə zəfər qazanan igid Azərbaycan əsgəri dünyaya göstərdi. Göstərdi ki, başqasının torpağını zəbt edərək vəhşiliklər törədənlərin aqibəti yalnız məğlubiyyət ola bilər.

### Dünyaya ən mühüm mesaj: "Azərbaycan o torpaqlara qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıdıb"

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş ərazilərə səfərləri və orada səsləndirdiyi fikirlər dünya ictimaiyyətinə siyasi mesajdır. İşğal vaxtı törədilmiş vəhşiliyin, dağıntıların miqyası göstərir ki, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi yerlə-yeksan etmiş, Azərbaycanın zəngin tarixi irsini silmək istəmişdir. Prezidentin səfərləri zamanı verilən ən mühüm mesajlardan biri budur ki, düşmən buna nail ola bilməyib: "Azərbaycan o torpaqlara qəhrəman xalq kimi, müzəffər dövlət kimi qayıdıb".

Artıq 8 aya yaxındır ki, bu torpaqlarda Azərbaycan vətəndaşı addımlayır, Azərbaycan dilində danışılır. Azərbaycanın işçi qüvvəsi tikinti-quruculuq işlərinə başlamışdır. Dövlətimizin başçısı Şuşaya və digər azad olunan bölgələrə dəfələrlə səfərlər edib, Azərbaycanın üçrəngli bayrağını qaldırıb. Ermənilərin tör-töküntüləri ərazilərdən təmizlənir. Yəni düşmənin basdırdığı minalardan təmizləmə işləri sürətlə aparılır. Şuşanın bərpa olunması ilə bağlı bəzi layihələr Heydər Əliyev Fondu tərəfindən icra olunacaq. Vaqifin məqbərəsində tezliklə bərpa işləri başlanacaq. Məqbərənin əvvəlki görkəmi bərpa ediləcək. Artıq işlərə start verilib. Bunu, həmçinin Molla Pənah Vaqifin büstünün bərpası layihəsini Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edəcək. Şuşa regionun ən gözəl istirahət bölgəsinə çevriləcəkdir.

### Qaliblər həmişə yüksək ehtirama layiqdirlər

Bəli, illər keçəcək, tariximizin qanlı-qadalı, həm də zəfər qazandığı illəri, hadisələri heç bir zaman unudulmayacaq. Törədilən hər bir cinayətə, vəhşiliyə görə düşmən tarix qarşısında cavab verəcək. Təbii ki, yeni reallıqlar yaradan, tarixi ədaləti bərpa edən Azərbaycan tərəqqi yolunda inamla irəliləyəcək.

Prezident İlham Əliyevin işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlarında vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa, quruculuq işlərini həyata keçirəcəyik. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdacaq, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proqramlarının uğurlu icrası daha da sürətlənəcək, Qarabağın yaraları sağaldılacaq, bu ərazilər cənnət məkana çevriləcək, hər zaman olduğu kimi, "Dəmir yumruğun" gücü ilə Azərbaycana qarşı qərəzli mövqe duranlar iflasa məhkumdur, məhkum da olacaqlar. Və mənfur düşmən unutmamalıdır ki, Azərbaycan illər öncədən regionda lider, dünyada söz sahibi idi. Prezident İlham Əliyevin Ermənistanı əzən dəmir yumruğu isə ölkəmizin beynəlxalq aləmdə imicini, yerini və mövqeyini daha da möhkəmləndirdi. İndi dünya ictimaiyyəti Azərbaycana daha ehtiramla yanaşır. Çünki qaliblər həmişə yüksək ehtirama layiqdirlər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

# Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti mövzusunda diplomatiya həftəsinin açılışı olub

**İyulun 12-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə "44 günlük Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti" mövzusunda diplomatiya həftəsinin açılış mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.**

Tədbirdə Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Diplomatiya könüllülərinin rəhbəri Nigar Eyvazzadə layihənin təqdimatını edərək, bu çərçivədə həyata keçiriləcək fəaliyyət barədə danışıb.

Qeyd edilib ki, diplomatiya həftəsi Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatlarının və hərəkatlarının nümayəndələrinin iştirakı ilə iyulun 12-26-da keçiriləcək. İştirakçıların iki həftə ərzində Azərbaycanın Vətən müharibəsi dövründə xarici siyasəti, habelə Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi şanlı Azərbaycan Ordusunun qazandığı tarixi Zəfər haqqında ətraflı məlumatlandırılması üçün Xarici İşlər Nazirliyi və digər dövlət qurumlarının yüksək səviyyəli nümayəndələri, habelə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin rəhbərləri, Vətən müharibəsinin iştirakçıları, onu işıqlandıran xarici jurnalistlər, tanınmış ictimai xadimlər ilə görüşləri keçiriləcək. Bununla yanaşı, layihə çərçivəsində bir sıra mədəni proqramların, ekskursiya və səfərlərin təşkili nəzərdə tutulub.



Mərasimdə ölkə rəhbərliyinə, Azərbaycan gəncliyinə, o cümlədən könüllülər hərəkatına göstərilən diqqət və yüksək dəyərə görə təşəkkür ifadə edilib.

Tədbirdə 44 günlük Vətən müharibəsi dövründə yaşanmış hadisələrin bir hissəsini özündə ehtiva edən videokollaj nümayiş olunub.

Salamlama nitqi ilə çıxış edən ADA Universitetinin prorektoru Fariz İsmayılzadə bu ali təhsil ocağının XİN-lə birgə 44 günlük Vətən müharibəsi və ondan sonrakı mərhələdə həyata keçirilən xarici siyasət mövzusunda gənclərin məlumatlandırılması layihəsinin təşkilatçısı qismində çıxış etməkdən məmnunluğunu bildirib. O, Azərbaycanın beynəlxalq müstəvidə layiqincə tanıdılması baxımından gənclərin mühüm rol oynadığını vurğulayıb.



Açılış mərasiminin əsas qonağı, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edərək, tədbirin bir il əvvəl Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində dövlət sərhədində növbəti təcavüz aktına əl atması tarixinə təsadüf etdiyini vurğulayıb. Azərbaycan Silahlı Qüvvələrinin düşmənin hərbi təxribatlarını layiqincə cavablandırdığı və 44 günlük Vətən müharibəsi nəticəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Ordumuzun qazandığı şanlı Zəfərin ölkəmizin tarixinə qızıl hərflərlə daxil olduğu qeyd edilib. Münaqişənin keçmişdə qaldığını qeyd edən Hikmət Hacıyev Azərbaycan qarşısında duran əsas vəzifələrdən, xüsusilə də azad olunmuş ərazilərin yenidən qurulması prosesindən, bu ərazilərin minalardan təmizlənməsindən, beləliklə, məcburi köçkünlərin öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə geri dönüşünün təmin olunmasından danışıb. Təməlində milli maraqlar dayanan Azərbaycan xarici siyasətinin bundan sonra da bölgədə və dünyada sülh və təhlükəsizliyin, beynəlxalq hüququn təmin edilməsinə yönələcəyi vurğulanıb. Tədbirin sonunda H.Hacıyev iştirakçıların suallarını cavablandırıb.

## İyulun 11-də Azərbaycanda koronavirusa qarşı 39 minə yaxın vaksin vurulub

İyulun 12-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı 564 doza vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 269, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 295 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 4 milyon 108 min 514-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 475 min 180, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 633 min 334 nəfərdir.




## Baş həkimdən rüşvət tələb edən reketmi, "jurnalist"mi?

Bakıda baş həkimdən rüşvət tələb edən daha bir reket "jurnalist" həbs edilib. Sabunçu rayon prokurorluğundan SİA-ya verilən məlumata görə, "shefaf.az" xəbər portalının baş redaktorunun 36 nömrəli Şəhər Poliklinikasının baş həkimindən hədə-qorxu ilə pul tələb etməsi barədə rayon prokurorluğuna müraciət daxil olub.

Aparılmış araşdırmalarla müəyyən edilib ki, qeyd edilən xəbər portalının təsisçisi və baş redaktoru Namik Əmrahov vəzifəli şəxs olaraq xidməti vəzifəsinin icrası ilə əlaqədar özü üçün üstünlük əldə etmək məqsədi ilə öz qulluq səlahiyyətlərindən istifadə edib. Sabunçu rayonu, 36 nömrəli Şəhər Poliklinikasının baş həkimi Ramidə İbrahimovaya özünü "www.azinfo.tv" və "www.shefaf.az" xəbər portalının rəhbəri kimi təqdim etməklə barəsində kütləvi informasiya vasitələrində rüsvayedici məlumatlar yayacağı ilə hədələyərək 2018-ci ildən etibarən ondan dəfələrlə ümumilikdə 2 min manat məbləğində pul tələb edərək alıb.

Faktla bağlı Sabunçu rayon prokurorluğunda cinayət işi başlanıb, Namik Əmrahov Cinayət Məcəlləsinin 182.2.2 (təkrar törədilməklə hədə-qorxu ilə tələb etmə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə istintaq davam edir.










## Ukraynanın telekanalı: "Azərbaycan Ordusu Şuşanı yüngül silahlarla və əlbəyaxa döyüşlə azad edib"

Azərbaycan Ordusu artilleriya tətbiq etmədən, sadəcə, yüngül silahlarla və əlbəyaxa döyüşlə Şuşanı işğaldan azad edib. Bunu Ukraynanın nüfuzlu "5 kanal" telekanalının xüsusi müxbiri Şuşadan hazırladığı reportajı zamanı bildirib.

Reportajda qeyd edilib ki, Azərbaycan Ordusunun xüsusi təyinatlıları hündür qayalıqlara dırmaşaraq Şuşanı fəth ediblər. Ukraynalı jurnalist hərbçilərimizin qəhrəmanlığından, uğurlu döyüş yolundan bəhs edib. Reportajda, həmçinin Şuşada açılan ilk çörək sexi, aparılan quruculuq işləri barədə məlumat verilib, şəhid ailəsinin üzvlərinin, Birinci Qarabağ müharibəsi veteranının fikirləri yer alıb.

# Ərəb KİV-ləri:
## Azərbaycan zamanla yarışır

Ərəbdilli "alwasela" və "alqraralaraby" xəbər saytlarında "Azərbaycan zamanla yarışır" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə ölkəmizin nail olduğu sürətli inkişafdan, gündən-günə artan nüfuzundan və gözəlliyindən danışılır. Qeyd edilir ki, əhalisinin sayı 10 milyondan çox olan Azərbaycan yaşıllıqlar diyarıdır. Burada yol kənarları və meydanlar yaşıllığa qərq olub. Ölkədə böyük infrastruktur layihələri həyata keçirilir.



Müəllif qeyd edir ki, Azərbaycan mötəbər idman yarışlarına uğurla ev sahibliyi edir. Bakıdakı Olimpiya Stadionu dünyanın ən gözəl idman arenalarından biridir. Bura, həmçinin beynəlxalq idman yarışlarının keçirildiyi məkandır. Təsadüfi deyil ki, bir neçə gün əvvəl Bakıda futbol üzrə Avropa çempionatının bir neçə oyunu da keçirilib.

Məqalədə Azərbaycanın təbii sərvətlərlə, xüsusilə neft və qazla zəngin olduğu bildirilir. Diqqətə çatdırılır ki, Ermənistanla uzun müddət müharibə vəziyyətində olmuş Azərbaycanın qısa müddət ərzində bu cür yüksək iqtisadi inkişafa nail olması təqdirəlayiqdir.

# YAP Təftiş Komissiyasının növbəti iclası keçirilib

İyulun 12-də Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının növbəti iclası keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın əlamətdar hadisə ərəfəsində keçirildiyini bildirib. O qeyd edib ki, 14 iyul 1969-cu il tariximizə ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi gün kimi daxil olub. Ulu Öndərin hakimiyyətə gəlişi respublikamızın intibah və tərəqqisinin başlanğıcı kimi dəyərləndirilir. Çünki o dövrə qədər Azərbaycan keçmiş ittifaq arasında ən geridə qalan respublikalar sırasında idi. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qısa müddət ərzində Azərbaycan sosial-iqtisadi inkişaf, milli kadrların irəli çəkilməsi, gənclərin keçmiş ittifaqın nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində mühüm addımlar atıldı. Ən önəmli məqamlardan biri də budur ki, Ümummilli Liderimizin hələ sovet dövründə həyat keçirdiyi siyasət milli oyanış prosesində də vacib rol oynadı ki, bu da müstəqilliyimizə gedən yolun təməllərindən biri kimi qiymətləndirilir.



S.Hüseynova diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci hakimiyyəti dövrü isə müstəqil, hüquqi-demokratik dövlət quruculuğu kimi səciyyələndirilir. Belə ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan böyük dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməl prinsiplərini, inkişaf strategiyasını müəyyənləşdirdi, müstəqilliyimizin dönməzliyini təmin etdi. 2003-cü ildən isə Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan daha da inkişaf edərək dünyada güclü və qüdrətli dövlətə çevrilib. Məhz bunun nəticəsidir ki, ötən il 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız erməni işğalından azad olundu, Azərbaycanın ərazi bütövlüyü təmin edildi.





YAP Təftiş Komissiyasının sədri söyləyib ki, Vətən müharibəsində qazanılan parlaq qələbə yeni reallıqlar yaradıb. Bu reallıqlar siyasi sferanı da əhatə edir. Bu ilin mart ayında Yeni Azərbaycan Partiyasının VII Qurultayının keçirilməsi və qurultayda mühüm qərarların qəbul edilməsi, partiyamızın Sədri, Prezident İlham Əliyevin partiya üzvləri qarşısında qoyduğu yeni vəzifələr bütün bunları bir daha təsdiqləyir.

Daha sonra iclasın gündəliyi barədə məlumat verən S. Hüseynova deyib ki, gündəliyə Təftiş Komissiyasının reqlamentinin təsdiq olunması və komissiyanın iş planı barədə məsələlər daxildir. Qeyd olunub ki, Təftiş Komissiyasının ilk iclasında reqlamentin hazırlanması barədə qərar qəbul olunmuşdu. Artıq bu sənəd hazırdır. 5 bölmə və 65 maddədən ibarət olan reqlamentdə Təftiş Komissiyasının fəaliyyət prinsipləri, qaydaları və digər məsələlər öz əksini tapır.

YAP Təftiş Komissiyasının sədr müavini, Milli Məclisin deputatı Nizami Səfərov sənədin üzərində zəruri işlərin aparıldığını, bu istiqamətdə beynəlxalq təcrübənin öyrənildiyini diqqətə çatdırıb.

Müzakirələr zamanı YAP Təftiş Komissiyasının üzvləri Sadiq Qurbanov, Cavanşir Paşazadə, Musa Musayev, Vüqar İskəndərov, Həsən Həsənov, Aydın Hüseynov, Məlahət İbrahimqızı və Elman Nəsirov çıxış edərək sənədlə bağlı rəy və təkliflərini bildiriblər. Müzakirələrin sonunda YAP Təftiş Komissiyasının reqlamenti qəbul olunub. İclasda daha sonra YAP Təftiş Komissiyasının iş planı ilə bağlı məsələyə baxılıb və iş planının hazırlanması üçün işçi qrupunun yaradılması haqqında qərar qəbul olunub.

# Zəngəzur Azərbaycanın inzibati, iqtisadi və siyasi həyatına geri dönür

## İlham Əliyev: “Bu, həmin tarixi torpaqlardır ki, Zəngəzur dəhlizi də həmin torpaqlardan keçəcək”

**Prezident İlham Əliyevin sərəncamı əsasında Azərbaycan Respublikasının yeni iqtisadi rayonlara bölünməsi ölkəmizin həyatında yeni tarixi hadisə kimi həkk olundu. Bu, eyni zamanda, müharibədən sonra işğaldan azad edilmiş ərazilərimizə yeni nəfəs verən bir reallıq kimi də qiymətləndirilir.**

Beləliklə, Prezidentin sərəncamı iki mühüm amilləri ilə diqqət çəkir. Bu, ilk növbədə vahid Qarabağ iqtisadi rayonunun yaradılmasıdır ki, Azərbaycanın nəhəng tarixi regionunda “dağlıq” ifadəsini kənarlaşdırır. Bundan əlavə, Şərqi-Zəngəzur iqtisadi rayonuna isə beş işğaldan azad edilmiş rayonlarımız daxil olur - Cəbrayıl, Kəlbəcər, Qubadlı və Zəngilan.

**Ermənistan hələ də ətraf dünyaya şəxsi ərazi iddiaları gözündə baxır, eyni zamanda, ümumi sülhün bərqərar olmasına maneələr törədir**

Bu minvalla, üzərindən 100 il keçəndən sonra Zəngəzur yenidən rəsmi qaydada Azərbaycan dövlətinin inzibati və iqtisadi, eləcə də siyasi həyatına geri dönür.

Bu arada, İlham Əliyevin mart ayında Türk Şurasındakı çıxışı zamanı irəli sürdüyü bəyanatını da xatırlatmaq yerinə düşərdi. SİTAT: “Əgər biz xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər salıblar, türk dünyası parçalanıb. Zəngəzur Azərbaycanın qədim torpağıdır, bundan sonra türk dünyası üçün birləşdirici rol oynayacaq. Ona görə ki, Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya və infrastruktur layihələri bütün türk dünyasını birləşdirir, eləcə də Ermənistan da daxil olmaqla başqa ölkələr üçün də əlavə imkanlar yaradacaq”.



Bununla yanaşı, məhz Ermənistan Zəngəzur dəhlizinin yaradılmasına əngəllər yaradır, halbuki həmin cəhdlər 44 günlük müharibəyə nöqtə qoymuş 10 noyabr 2020-ci ildə qəbul olunmuş üçtərəfli bəyanatı kobudcasına pozur. Bu ölkə hələ də ətraf dünyaya şəxsi ərazi iddiaları gözündə baxır, eyni zamanda ümumi sülhün bərqərar olmasına maneələr törədir.

O cümlədən, bənzər yanaşma Ermənistanın özünün nə tarixi, nə də resurs imkanlarının gələcəyinə qarşı baryerlər qoyur ki, üçtərəfli bəyanatın icrasının gecikdirilməsi də həmin məsələləri yenidən gündəmə gətirir. Ermənistan əvvəllər olduğu kimi, bu dəfə də öznünütəcrid vəziyyətinə salır ki, bu regional təcriddən də məhz erməni xalqı əziyyət çəkib, bu gün də çəkməkdədir.

**Məhz bu qərar bizim əsas milli prioritetlərimizdəndir və bunun üçün Azərbaycan dövlətinin bütün resursları hərəkətə keçirilib**

Ancaq bütün bunlara baxmayaraq, qalib Bakı qarşısına hədəf qoyub və Zəngəzur dəhlizinin yaradılması istiqamətində qətiyyətli addımlarını atmaqda davam edir. Beləliklə, bu regionda nəninki iqtisadi imkanlar, həm də tarixi həqiqətlər bərpa olunmaq üzrədir.

Şərqi-Zəngəzur iqtisadi rayonunun yaradılması və tarixi zərurəti Prezident İlham Əliyevin bu ilin aprel ayında Zəngilanın Mincivan kəndinə etdiyi səfəri zamanı da ifadə edilib. SİTAT: “Zəngilan coğrafi olaraq Şərqi Zəngəzur regionuna aiddir və Şərqi Zəngəzurda yerləşir - bu, həmin tarixi torpaqlardır ki, Zəngəzur dəhlizi də həmin torpaqlardan keçəcək”.

Beləliklə, Azərbaycanın Şəqri-Zəngəzur iqtisadi rayonunun yaradılması həm işğaldan azad edilmiş torpaqlarımızın bərpası istiqamətindəki qətiyyəti sübut edir, həm də Zəngəzurun qərb hissəsini - Azərbaycan Respublikasının Naxçıvanla əlaqəsini təmin edir. Məhz bu qərar bizim əsas milli prioritetlərimizdəndir və bunun üçün Azərbaycan dövlətinin bütün resursları hərəkətə keçirilib.

***Rövşən RƏSULOV***

## Tovuzda turizmin inkişafına nə mane olur?

Bu bölgədə turizmin inkişafına mane olan nədir? Söhbət Tovuz rayonun Əsrik-Böyük Qışlaq ərazisində yerləşən istirahət mərkəzlərindən və turizm obyektlərindən gedir. Qərb rayonlarının ən çox üz tutduğu bu ərazilərdə yay və qış turizmini inkişaf etdirmək üçün hər cür şərait olsa da, elektrik enerjisinin olmaması ciddi maneələr yaradır. Buraya gələn sakinlər istirahət mərkəzlərindən razı qaldıqlarını bildiriblər.



**Vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə yaradılan “ASAN xidmət” mərkəzinin yaradılmasından 9 il ötür. Belə ki, “ASAN xidmət” mərkəzləri Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılmışdır.**







# “ASAN xidmət” vətəndaş məmnunluğu yaradır

## “ASAN xidmət” mərkəzləri dövlət başçısının 2012-ci il 13 iyul tarixli Fərmanına əsasən yaradılıb

Azərbaycan brendi olan “ASAN xidmət” mərkəzlərinin fəaliyyətə başlaması dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşma modelidir. Bu model vətəndaş maraqlarına xidmət edir və yeni dövrün çağırışlarından irəli gələn xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqidir.Bu gün Azərbaycan brendi olan “ASAN xidmət” “vahid məkan” prinsipi əsasında fəaliyyət göstərir. “ASAN xidmət” mərkəzlərində vətəndaşlara xidmətin daha yaxşı göstərilməsi üçün yeni üsullardan və müasir innovasiyalardan istifadə olunur ki, bu vətəndaş məmnunluğuna səbəb olub. Vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir.



### “HARADA GÜCLÜ İRADƏ VAR, DÜŞÜNÜLMÜŞ SİYASƏT VAR VƏ İCRAEDİCİ MEXANİZMLƏR TƏKMİLLƏŞİB, ORADA HƏMİŞƏ NƏTİCƏ DƏ OLACAQ”

Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində bildirib ki, bu mərkəzlərdə şəffaflığın dərəcəsi mütləqdir: “Yəni, “ASAN xidmət”in əsas xüsusiyyətlərindən biri də odur ki, insanları ictimai xidmətlər sahəsində rüşvətxorluqdan, korrupsiyadan qoruya bildi. İctimai xidmətlər demək olar ki, ən korrupsiyalaşmış sahələrdən biri idi. İnsanlar onlara qanun çərçivəsində təqdim ediləcək bir arayış üçün həftələrlə, bəzən aylarla qapı-qapı gəzirdilər, məmurlardan xahiş edirdilər, bir çox hallarda onlara lazım olan sənədləri rüşvət müqabilində alırdılar. Amma artıq neçə ildir ki, bu praktika Azərbaycanda tamamilə aradan qaldırılıb. Bu, bir də onu göstərir ki, harada güclü iradə var, düşünülmüş siyasət var və icraedici mexanizmlər təkmilləşib, orada həmişə nəticə də olacaq”.

Vurğulamaq yerinə düşər ki, 29 dekabr 2012-ci ildə Bakıda pilot layihə olaraq ilk “ASAN xidmət” mərkəzinin açılışı oldu. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirirməklə 15 yanvar tarixində fəaliyyətə başladı. Həmin tarixdən vətəndaşlara yüksək keyfiyyətli xidmətlər göstərilir. Həmin zamandan ölkəmizin bir çox yerlərində mərkəzlərin sayı durmadan artır. Bildiyimiz kimi, 3 may 2013-ci ildə “Asan xidmət”in Sumqayıt mərkəzinin açılışı oldu. Bundan bir neçə həftə sonra, mayın 24-də Bakıda ikinci “ASAN xidmət” mərkəzinin açılışı həyata keçirildi. Bu mərkəz iyunun 5-də vətəndaşlara xidmət göstərməyə başlayıb. 17 sentyabr 2013-cü ildə Bakıda üçüncü mərkəzin açılışı olub. 2013-cü ilin sonlarında, dekabrın 21-də Azərbaycanda sayca beşinci “ASAN xidmət” mərkəzinin açılışı oldu. Bu mərkəz Gəncədə fəaliyyətə başladı. 23 yanvar 2014-cü ildə “ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatdı.Bakıda sayca dördüncü “ASAN xidmət” mərkəzinin açılışı isə 2014-cü ildə mayın 7-də oldu. Həmin ilin yayında “ASAN xidmət” səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə “Uğur 2013” mükafatına layiq görüldü. 2014-cü ilin dekabr ayının 15-də Sabirabadda “ASAN xidmət” mərkəzinin açılışı oldu. Daha sonra Bərdədə, Bakıda, Masallı və Qəbələdə, Qubada, Mingəçevirdə, İmişlidə vəŞəkidə,Şamaxıda, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndə “Asan xidmət” mərkəzləri fəaliyyətə başlayıb. “ASAN xidmət”ə indiyə qədər 44 milyondan çox müraciət edilib.ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanlarının vətəndaşlara göstərdiyi xidmətlərdən başqa funksional yardımçı xidmətlər də təklif olunur. 2013-cü ilin iyunun 1-dən etibarən artıq “ASAN xidmət”in təklif etdiyi xidmətlərdən istifadə etmək üçün mərkəzlərə gələ bilməyən vətəndaşlara xidmət göstərmək üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz olunmuş səyyar avtobuslardan istifadə olunur. Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin tapşırığıəsasında “ASAN xidmət” mərkəzlərinin olmadığı regionlarda vətəndaşların dövlət xidmətləri ilə təmin edilməsi üçün müasir texniki avadanlıqla təchiz olunmuş səyyar “ASAN qatar” konsepsiyası da reallaşdırılıb. Bütün bunlar vətəndaşların rahatlığının təminatında, onlara şəffaf və nəzakətli xidmətin göstərilməsinin əsas faktorlarıdır. Diqqətə çatdıraq ki, dövlət başçısının 2016-cı ilin mayında imzaladığı Fərmanla “ASAN kommunal” mərkəzlərinin yaradılması Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tapşırılmışdı və qısa müddətdə “ASAN kommunal” xidmətinin yaradılması üçün aidiyyəti qurumlarla bir yerdə tədbirlər həyata keçirildi. “ASAN Kommunal” mərkəzlərində Azəriqaz, Azərsu, Azərişıq şirkətlərinin 45 növ kommunal xidmətləri göstərilir. Bu gün paytaxtımızda 2 “ASAN Kommunal” mərkəzi fəaliyyətdədir.

### AZƏRBAYCAN BRENDİ OLAN “ASAN XİDMƏT”Ə DÜNYADA MARAQ ARTIR

Azərbaycan brendi olan “ASAN xidmət” mərkəzləri beynəlxalq mükafatlara layiq görülüb. Bu gün “ASAN xidmət”in fəaliyyəti Avropa İttifaqında, Avropa Parlamentində, Böyük Britaniya parlamentində, Fransa, Almaniya və digər ölkələrdə yüksək qiymətləndirilir. Özünəməxsus hüquqi strukturu olan bu model bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunur. Artıq Azərbaycanın “ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb.Bu illər ərzində xidmət bir neçə beynəlxalq dərəcəli sertifikata layiq görülüb, Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Cənab İlham Əliyevin vurğuladığı kimi, beynəlxalq təşkilatlar “ASAN xidmət”in fəaliyyətini yüksək qiymətləndirirlər: “BMT “ASAN”ı fərqləndirib, mükafat verib. Bu da əlbəttə ki, görülən işlərin nəticəsidir”. “Uğur 2013” “səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə” nominasiyasının qalibi olub. İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikatı alıb. “ASAN xidmət” 2015-ci il BMT-nin “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında birinci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif edilib. Dövlət Agentliyi ilə ISESCO arasında imzalanan Birgə Əməkdaşlıq Proqramına əsasən qabaqcıl idarəetmə üzrə “ISESCO-nun ASAN mükafatı” təsis olunub. Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan brendi olan “ASAN xidmət”ə dünyada böyük maraq var.

### “ASAN XİDMƏT” KİMİ, DOST MƏRKƏZLƏRİ DƏ BÜTÜN ÖLKƏMİZİ ƏHATƏ EDƏCƏK”

“ASAN xidmət” öz fəaliyyətini genişləndirir, həm coğrafi əhatə, həm də xidmətlərin sayı artır”. Bu fikirləri Azərbaycan Prezidenti Cənab İlham Əliyev bildirib. Dövlət başçısı qeyd edib ki, hər kəs görür ki, bu, hansısa bir fərdi layihə deyil, bu, yanaşma tərzidir, bu, düşüncə tərzidir, bu, bizim siyasətimizdir: “ASAN”da olan şəffaflıq, mədəniyyət hər yerdə tətbiq edilməlidir. Yəni, “ASAN xidmət” bir çox sahələr üçün nümunə olub. Təsadüfi deyil ki, indi sosial təminat sahəsində də buna oxşar layihə həyata keçirilir - DOST mərkəzləri fəaliyyətə başlayır və “ASAN xidmət” kimi, DOST mərkəzləri də bütün ölkəmizi əhatə edəcək. “ASAN xidmət” mərkəzlərinin yaradılması ilə bağlı kifayət qədər geniş proqramımız var”.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və Prezident İlham Əliyevin 2018-ci ildə imzaladığı Fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Mərkəzlərində əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, əlillik, əmək və məşğulluq, övladlığa götürmə, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza sahələri üzrə 100-dən artıq xidmət göstərilir. 4 Saylı “DOST” Mərkəzinin tərkibindəki “Çağrı Mərkəzi” ölkə üzrə gündəlik 5 minədək zəng qəbuluna şərait yaradır. “ART School” - “İnklüziv İncəsənət Məktəbi” isə ildə orta hesabla 150-200 əlilin təlimlərdən keçməsinə imkan verəcək. Bütün bunlar dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasını özündə ehtiva edir. Bu günədək DOST mərkəzlərində xidmət göstərilən 330 mindən çox şəxsin məmnunluq dərəcəsi 97,2 faiz təşkil edib. Təbii ki, DOST mərkəzləri də daha geniş miqyasda keyfiyyətli sosial xidmətlərin həyata keçirilməsinə geniş imkanlar yaradacaq. Yaxın zamanlarda Abşeronda növbəti DOST Mərkəzi açılacaq, Quba, Sabirabad, Gəncə, Sumqayıtda da artıq bu istiqamətdə iş gedir. Ümumilikdə, 16 regional mərkəzin yaradılması nəzərdə tutulub. Onu da bildirək ki, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq artıq Şuşada DOST Mərkəzinin yaradılması ilə bağlı işlərə başlanılıb. Bu gün Azərbaycan təcrübəsi dünya ölkələrində öyrənilir. Dövlət başçısının vurğuladığı kimi, artıq “ASAN xidmət” “ASAN” adı altında başqa ölkələrdə də fəaliyyət göstərməyə başlayıb: “Bu, bizim şərtimiz idi, çünki bu, bizim brendimiz, bizim intellektual məhsulumuzdur. Əlbəttə, biz öz təcrübəmizi istənilən ölkə ilə bölüşməyə hazırıq və bunu edirik. Əlbəttə, sevinirik ki, digər ölkələr də bizim təcrübəmizdən istifadə edirlər”.Əlbəttə ki, dövlətimiz tərəfindən bütün görülən işlərin arxasında insanlara daha da keyfiyyətli xidmətin göstərilməsi dayanır.

***Zümrüd BAYRAMOVA***

SİYASİ RAKURS

# Tovuz hadisələri necə başladı: ehtimallar, reallıqlar

## Erməni təxribatlarından başlayan Qarabağ zəfərinin əsası



**Hələ ötən ilin avqust ayının 21-də Ermənistan rəhbərliyi kapitan Ruben Sanamyana "milli qəhrəman" adının verilməsi üçün fərman imzaladı. Həmin vaxt anlaşılmaz qaldı ki, axı erməni rəhbərliyi Sanamyanı hansı xidmətlərinə görə həmin yüksək mükafata layiq görüb?**

Lakin bir neçə saat sonra Ermənistanın müdafiə nazirliyinin mətbuat katibi Şuşan Stepanyan özünün facebook səhifəsində qeyd etdi ki, Sanamyan "Qorxmaz" ("Anvax") postunun müdafiəsi (?!) müqabilində həmin mükafata layiq görülüb və s. Ancaq adıçəkilən postun əhəmiyyətlilik dərəcəsini öyrənmək üçün sərhəddə baş verən ilk döyüşlərlə bağlı materialları istər-istəməz bir daha nəzərdən keçirmək tələbi yaranır.

### Şuşan Stepanyan erməni diversantları tərəfindən postumuzu ələ keçirmək cəhdini belə gizlətməyə cəhd edib

Beləliklə, iyulun 12-də həmin Şuşanyan facebook səhifəsində yazır ki, Azərbaycan tərəfinə məxsus "UAZ" guya dövlət sərhədini pozaraq (?!) erməni mövqelərinə tərəf çıxmağa cəhd edib. Lakin istənilən sağlam düşüncəli insan elə ilk baxışdaca anlayır ki, hərbi əməliyyatların bu cür başlanğıcı, sadəcə, absurddur!

Bəli, "UAZ" həqiqətən də mövcud olub. Belə ki, yanmış maşının fotoları iyulun 12-də, axşam saatlarında erməni resurslarında yayılmağa başladı.

13 iyulda isə erməni mənbələri Ermənistan silahlı qüvvələri mövqenin fotolarını yaydılar. Yəni belə informasiya yarandı ki, ermənilər azərbaycanlılara məxsus postu "tutublar".

Erməni tərəfi bunun ardınca azərbaycanlılara məxsus "UAZ"ın yaxınlaşması videosunu da yerləşdirdilər. Ancaq erməni əsgərləri tərəfindən bir gün əvvəl məhz bu "UAZ"ın gülləyə tutulmasını demək çətindir.

İyulun 16-da isə Şuşan Stepanyan azərbaycanlı hərbçilərin "erməni tərəfinin yaratdığı imkanı" (?!) vasitəsi ilə həlak olmuş hərbçilərin nəşlərinin çıxarılması kadrlarını yayır. Həmin kadrlarda hələ iyulun 12-də gülləyə tutulmuş "UAZ"ı görmək mümkündür.

Şuşan Stepanyanın həmin kadrlarından sözügedən yerin koordinatlarını da asanlıqla müəyyən etmək mümkündür - 40.9052981, 45.5278721 və demək olar ki, ermənilərin "Qorxmaz" adlandırdıqları koordinatlarla üstüstə düşən 40.9044680 və 45.5278700. Və əgər həmin postdan gedən yollara diqqət yetirilərsə, çox asanlıqla belə nəticə hasil etmək olar ki, bu, Azərbaycan postu olub. Onda belə nəticəyə gəlmək olar - Şuşan Stepanyanın Azərbaycana məxsus "UAZ"ın "anlaşılmaz səbəblərdən" guya Ermənistanın ərazisinə daxil olmaq cəhdləri barəsindəki iddiaları əslində, erməni diversantları tərəfindən postumuzu ələ keçirmək cəhdini gizlətməkdən ibarət olub. Yəni təxribat düşmən tərəfindən həyata keçirilib!

### Onlar maşında olan hərbçilərimiz olublar və ermənilər tərəfindən onların getmələrinə imkan verilməyib

Nəticədə yuxarıda qeyd edilənlərdən həm də belə bir fikir söyləmək olar ki, 12 iyul 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinə məxsus "UAZ" markalı hərbi avtomobil rahat şəkildə öz postuna tərəf hərəkət edirdi. Erməni tərəfi bunun ardınca iddia edib ki, xəbərdarlıq atəşlərindən sonra onlar azərbaycanlı hərbçilərə "maşını qoyub, ərazini tərk etmələrinə imkan yaradıblar".

O cümlədən, Şuşan Stepanyan tərəfindən sosial şəbəkədə yerləşdirilən kadrlardan görünür ki, azərbaycanlı hərbçilər "UAZ" yaxınlığından əsgərlərin nəşlərini çıxarırlar. Belə qənaətə gəlmək olar ki, onlar maşında olan hərbçilərimiz olublar və ermənilər tərəfindən onların getmələrinə imkan verilməyib.

### Lavrov "Trud"a müsahibəsində nəyə eyham vurmuşdu?

Əgər Rusiya XİN-nin rəhbəri Sergey Lavrovun 2020-ci ilin 20 avqust sayında verdiyi müsahibəsini təhlil edərsək, Azərbaycanla Ermənistan sərhədində baş vermiş və münaqişəyə gətirib-çıxarmış hadisələri zəncirvari olaraq izləyə bilərik:

**1.** Erməni tərəfi Tavuş vilayətindəki köhnə buraxılış məntəqəsinsə reanimasiya işləri aparıb.

**2.** Aparılan işlər Azərbaycan tərəfini narahat edib. Belə ki, Lavrovun sözlərinə görə, həmin buraxılış məntəqəsi Azərbaycanın ixrac boru kəmərlərindən 15 km aralıda yerləşir. Lavrov "narahatlıq" sözünü işlədərkən, fikrimizcə onu demək istəyib ki, ola bilsin, azərbaycanlı hərbçilər sözügedən buraxılış məntəqəsinə yüngül silahlardan atəş açıblar.

**3.** Daha sonra Lavrov deyir ki, ermənilər azərbaycanlıların narahatlıqlarına qarşı əsassız cavab reaksiyası göstəriblər. O, bununla həm də onu demək istəyib ki, erməni tərəfi azərbaycanlı hərbçilərə məxsus postu da əsassız olaraq ələ keçirməyə cəhd göstəriblər.

Lakin fakt budur ki, məhz Tovuz hadisələrinin başlanğıc nöqtəsi Qarabağ zəfərinin əsasını qoydu və davamlı erməni təxribatlarına, işğalçılığına qarşı sarsıdıcı zərbələr endirildi - cəmi 44 gün ərzində! Və bu günlərin hər biri dünyanı hərb tarixinə yeni imzalar atdı, qəhrəmanlıq, şücaət və qalibiyyət imzası.

Məhz Tovuz hadisələrindən sonta onillərlə yığılıb qalmış qisaslarımız, öclərimiz də düşməndən yetərincə, hətta artıqlaması ilə alındı və sübut olundu ki, Azərbaycanın qələbəsi sonuncu deyil, qarşıda növbəti qalibiyyətlər, zəfərlər bizləri gözləyir.

*Rövşən RƏSULOV*

## "Minsk qrupu vasitəçilik missiyasının beynəlxalq imicinə sarsıdıcı zərbə vurub"



"Azərbaycanın mədəni paytaxtı olan və ümumilikdə Cənubi Qafqazın incisi kimi tanınan Şuşa şəhərinə 46 dövlətin nümayəndəsi səfər etsə də, onların arasında ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin diplomatik təmsilçilərinin olmaması təəssüfləndirici, düşündürücü və qəbuledilməzdir. Bu yanaşma bir tərəfdən diplomatik etiket qaydalarına ziddirsə, digər bir tərəfdən isə ikili standartların qabarıq halı kimi iki qonşu ölkə arasında münasibətlərin tənzimlənməsinə dair bütün səylərə qarşı çıxmaqdır. Demokratik və sivil dünya bu yanaşmanı qəbul edə bilməz". SİA-nın verdiyi məlumata görə, bu fikirləri açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Vasitəçilik missiyasının ədalətə və birtərəfliliyə söykəndiyini xatırladan səfir Hulusi Kılıç deyib: "ATƏT-in Minsk qrupu məlum münaqişə dövründəki özünün yarıtmaz, ikiüzlü və tərəfli mövqeyi ilə vasitəçilik missiyasının beynəlxalq imicinə sarsıdıcı zərbə vurub. Bütün bunlar müasir dünyanın gözü qarşısında baş verib. Kimin danışıb, kimin susmasından asılı olmayaraq hazırda bütün dünya ictimaiyyətinə, xüsusilə beynəlxalq təşkilatlara, siyasi dairələrə, araşdırma mərkəzlərinə məlumdur ki, bu qrup keçmiş münaqişəni tənzimləmək üçün heç bir real addım atmayıb. Əksinə işğalçı tərəf bunların vasitəsilə dəstəklənib. Həmsədr ölkə səfirlərinin bu qeyri-məntiqi hərəkətindən belə başa düşülür ki, hələ də ölü vəziyyətdə olan Minsk qrupuna nəfəs verməyə ümidlidirlər. Niyə? Unutmasınlar, uzun illər münaqişə sayəsində keçirilən komfort həyat bir daha qayıtmayacaq. İkincisi, münaqişənin lap əvvəlindən əhalisi azərbaycanlılardan ibarət olmuş Şuşanın Qarabağda yaşayan ermənilərə heç bir aidiyyəti yoxdur. Bunu kim özünə dərd hesab edirsə özü bilər."

"Şuşa bir mədəniyyət paytaxtıdır. Dünya sivilizasiyasının ayrılmaz tərkib hissəsi olan bu qala həm nadir təbiəti, həm də özünün qədim şəhər görkəmi ilə incidir. Bütün dünyaya bəllidir ki, Prezident İlham Əliyevin məlum Sərəncamı ilə Şuşa Mədəniyyət paytaxtı elan edilib. Nəticə etibarilə Şuşaya təşkil olunan səfərlərin, xüsusilə də diplomatik korpusun bu ziyarətinin tamamilə mədəni özəlliyi var. Bu mənada Şuşaya səfər proqramından yayınmaq çox yanlış bir addımdır. Yəni mədəniyyət paytaxtına getməyən səfirlərin demokratiya və mədəni anlayışının əskik olduğu qənaətindəyəm. Hər şeyi özü adı ilə söyləmək lazımdır. Azərbaycan 1992-ci ildə BMT-yə üzv olarkən konkret sərhədləri çərçivəsində bu təşkilatın həqiqi üzvü olub, yəni beynəlxalq səviyyədə tanınan sərhədləri var. Bu mənada Qarabağ tamamən Azərbaycan torpağıdır. BMT Təhlükəsizlik Şurası məlum 4 qətnaməsi ilə Azərbaycana qarşı işğalçılıq siyasətini təsdiqləyib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəsur Azərbaycan Ordusu, Azərbaycan xalqı öz ərazi bütövlüyünün bərpa edib. Rusiya, Fransa və ABŞ səfirlərinin Şuşaya səfərlə bağlı sərgilədikləri birgə qaranlıq mövqe, bu və ya digər formada BMT qərarlarına zidd davranışdır",-deyə səfir fikirlərin tamamlayıb.

## Dünyanın temperaturu rekord həddə çatıb

Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da şiddətli istilər yaşanır. Son günlər dünyanın müxtəlif yerlərində istilik rekord qırıb. 2011-2021-ci illər dünyanın ən isti 10 ili sırasındadır. Qlobal istiləşmə yalnız iqlim böhranına səbəb olmur, eyni zamanda kənd təsərrüfatından sağlamlığa qədər bir çox sahələrə sərf olunan xərcləri artırır və insan həyatına mənfi təsir göstərir. Sənayeləşmə təsiri ilə 2021-ci il 1850, 1900-cu illərə görə 1,2 dərəcə isti olaraq qeyd edilib.

Dünyada yaşanan istilik dalğasına diqqət yetirək. Kanada son 84 ildə ən isti yayı yaşayır, ABŞ-ın Sakit okean sahillərində görünməmiş istilik dalğası yaşanır. Kanadanın qərbini təsir altına alan istilik dalğası ölkədə ən isti yayına səbəb olub. Kanada Meteoroloji Xidmətinin verdiyi məlumata görə, İngiltərə Kolumbiyası əyalətində qeydə alınan istilik 46,1 dərəcədir. Bu isə ölkədə indiyə qədər qeydə alınan ən yüksək temperaturdur. Qeyd edək ki, Kanada tarixində keçmiş rekord 1937-ci ilə aiddir, 45 dərəcə. Selsiçevan əyalətinin Pemberton vadisində istilərə görə qar daha sürətlə əriyib, beləliklə, çayın səviyyəsi yüksəldiyi üçün evlər sel təhlükəsi ilə üzləşib.

Kanadada bu il qeydə alınan ən yüksək dərəcə +46,1 dərəcədir. Bu qədər istilik ölkədə indiyədək qeydə alınan ən yüksək həddir. İngiltərə Kolumbiyasında istilərdən qorunmaq üçün sərinləmə mərkəzləri yaradılıb. İstilərə görə bəzi pərakəndə ticarət obyektləri bağlanıb.



ABŞ-ın şimal-qərb əyalətlərində həftə sonu istiliyin görünməmiş həddə çatdığı bildirilib. Hava proqnozu xidmətindən verilən məlumata görə, bu istilər "tarixi", "həyati təhlükəli"dir. Oregon əyalətinin Portland şəhərində hər il iyun ayının sonunda temperatur dərəcəsi 2-i göstərir. Lakin, bu il tarixdə ilk dəfə olaraq tempuratur 44 dərəcəyə çatıb. Bu şəhərdə ən yüksək istilik daha öncə 1939-cu ildə 47 dərəcəyə qədər yüksəlib.

**Moskvada 120 ilin ən yüksək istilik dərəcəsi**

Keçən həftə, Rusiyanın paytaxtı Moskvada havanın temperaturu 34,7 dərəcəyə çatıb və bu, son 120 ildə ən yüksək həddir. Səlahiyyətli şəxslər bu temperaturun qlobal istiləşmə ilə əlaqəli olduğunu vurğulayıblar. "Roshidromet"dən Marina Makarova deyib: "Bu günlərdə Moskvada qeydə alınan istilik artımı görünməmiş bir hadisədir".

Ətraf mühit üzrə mütəxəssis Roger Harrabin isə baş verən anomal istiliyin səbəbini belə ifadə edib: "Bu istilik dalğasının baş verməsinə səbəb sənaye tullantılarının atmosferə təsiridir.

Elm adamları həddindən artıq iqlim dəyişikliklərinin qlobal istiləşmə ilə əlaqəli olduğunu sübut etməkdə insanları düşündürən addımlar atılmasının vaxtı yetişdiyini bir daha isbat ediblər. Məsələn, mütəxəssislərin apardıqları araşdırma nəticəsində məlum olub ki, 2019-cu ildə Avropanı bürüyən həddindən artıq istilər, karbon emissiyaları sayəsində yüz dəfə çoxalıb.

Beynəlxalq təşkilatlar tərəfindən aparılan araşdırmalarda məlum olub ki, qlobal istiləşmə və iqlim dəyişikliyi Covid-19 pandemiyası səbəbilə yavaşlayacaq. Bunun səbəbi isə odur ki, atmosferə daha az zəhərli qazlar buraxılacaq. Qeyd edək ki, ötən il qlobal çirklənmə 17% azalıb. Lakin statistika 2020-də yenidən yüksəli. Qlobal istiləşmə sadəcə iqlim böhranının yaranması demək deyil, eyni zamanda insan vərdişlərinin və həyatın da dəyişməsidir.

Qlobal istiləşmə bitki örtüyünün zəifləməsi, yağışların artması və buzlaqların əriməsinə səbəb olur. Dünya oksigeninin 80 faizini istehsal edən okeanlar təhlükə altındadır. Dünyadakı oksigenin böyük miqdarı meşələrdən deyil, əksinə olaraq, ən çox okeanlardan alınır. Okeanlardakı yosunlar dünya oksigenin 70-80%-ni istehsal edərkən, qlobal istiləşmə okeanlardakı həyatı da təhdid edir.

*Qönçə Quliyeva*

# Vüqar Rəhimzadə: ABŞ, Rusiya və Fransa səfirlərinin səfərə qatılmamaları Azərbaycan üçün nəyisə dəyişmir



**“Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizlə 30 ilin işğalına son qoyuldu, ərazi bütövlüyümüz, suverenliyimiz bərpa edildi. Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşdu. Bu heç də ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdikləri vəhşilikləri, işğal altında olan torpaqlarımızda həyata keçirdikləri vandalizm aktlarını unutmaq anlamına gəlmir. Cənab İlham Əliyevin çıxışlarında da qeyd etdiyi kimi, xalqımız bu vəhşilikləri, Xocalı soyqırımını, şəhidlərimizi heç zaman unutmayacaq.**

Ermənilərin işğal dövründə, eyni zamanda, 10 noyabr üçtərəfli razılaşmasına uyğun olaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını boşaldarkən törətdikləri vəhşiliklər ölçüyəgəlməzdir. Həmçinin 44 günlük müharibə dövründə döyüş meydanında məğlubiyyətlərini həzm edə bilməyən Ermənistan silahlı qüvvələrinin sərhəddən uzaq rayonları beynəlxalq hüquq çərçivəsində qadağan edilmiş raketlərlə atəşə tutmaları, onlarla günahsız insanın ölümünə, yaralanmasına, saysız-hesabsız yaşayış binalarının, fərdi evlərin, mülki obyeklərin dağılmasına səbəb olduqları dünyaya bəllidir və beynəlxalq aləmin gözü qarşısında baş vermiş vandalizm aktlarıdır. Bütün bunlara rəğmən yenə də ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin- ABŞ, Rusiya və Fransanın səfirlərinin bugünlərdə Bakıda akreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələrinin Şuşaya səfərinə qatılmamaları diqqətdən kənarda qala bilməz. ATƏT-in Minsk qrupunun, həmçinin BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi ABŞ, Rusiya və Fransa diplomatlarının belə mövqe nümayiş etdirmələri bir daha bu dövlətlərin ermənipərəst siyasətlərinə aydınlıq gətirməklə yanaşı, Zəfərimizdən sonra sülh modelinə uyğun olaraq yeni reallıqlara dəstək göstərmək əvəzinə, əksinə münasibətlərin gərginləşməsində maraqlı olduqlarını təsdiqlədilər.”

Bu fikirləri “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, 10 noyabr Bəyanatının imzalanmasından, yeni Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqindən sonra ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdəki diplomatik korpusun və beynəlxalq təşkilatların nümayəndələri Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Qubadlı və Ağdam rayonlarında oldular: “Bu dəfə isə Qarabğın tacı, mədəniyyət beşiyimiz Şuşanı ziyarət etdilər. Təbii ki, bu səfərin məqsədi bəllidir. Səfirlərin məramı hər hansı bir dövlətin fəaliyyət göstərdiyi ölkədə elçisi olmaqla bərabər, həmçinin iki ölkə arasında əlaqələrin inkişafına töhfələr vermək olmalıdır. Erməni vandalizminin izləri ilə əyani tanışlıq, diplomatların təmsil etdikləri ölkələri həqiqətlərlə doluğun şəkildə məlumatlandırmaları baxımından belə səfərlər xüsusi əhəmiyyət kəsb edir. Həmçinin bu səfərlər torpaqlarımızın tarixi sahibinə qayıdışının təsdiqidir. Ümumilikdə 50-yə yaxın dövlət və beynəlxalq təşkilatın 100-dən çox nümayəndəsinin Şuşaya səfəri bu baxımdan xüsusi diqqət çəkir. Şuşaya səfər edənlər arasında Xorvatiya, Bolqarıstan, İtaliya, Latviya, Macarıstan, Niderland, Polşa, Yunanıstan, Türkiyə, Belçika, Estoniya, Litva, eyni zamanda, NATO və Avropa İttifaqına üzv ölkələrin nümayəndələri ilə yanaşı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvləri olan Belarus, Qazaxıstan və Tacikistan kimi ölkələrin diplomatları da olublar. Bu səfərdə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin səfirlərinin iştirak etməmələri bu dövlətlərin açıq-aşkar torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın yeni reallıqlar yaratması ilə barışmadıqlarını nümayiş etdirir.”

Baş redaktor bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin səfərdə iştirak etməmələri bir daha onlara qarşı etimadsızlıq mühtini dərinləşdirir: “Fransanın həmsədr dövlət kimi fəaliyyətsizliyi, ermənipərəst mövqeyi hər kəsə bəlli olan faktdır. ABŞ-ın indiki Administrasiyası “erməni soyqırımı” ifadəsini işlətməklə ermənilərə dəstəyini ifadə etdiyi halda sonra atdığı addımları ilə bunu pərdələməyə çalışsa da, artıq reallıq göz önündədir. Rusiyaya gəldikdə isə 10 noyabr razılaşmasında vasitəçi tərəf, eyni zamanda, bölgədə sülhün, təhlükəsizliyin yaradılması məqsədilə Rusiya sülhməramlılarının burada yerləşdirilməsinə, Rusiya-Türkiyə Monitorinq Mərkəzinin fəaliyyət göstərməsinə baxmayaraq, təəssüf ki, şimal qonşumuz hələ də problemə ikili yanaşma nümayiş etdirməkdədir. Dünyanın super güclərinin bölgədə yaranan yeni reallıqların gerçəkləşməsinə mane olmaq cəhdləri birmənalı qarşılana bilməz. Düşünürdük ki, 30 ilə yaxın dövrdə münaqişənin həllində vasitəçilik missiyalarını yerinə yetirməyən, Ermənistana dəstək olan bu dövlətlər postmüharibə dövrünün reallıqlarının həyata keçməsinə vasitəçi olmaqla, Ermənistanı sülh razılaşmasına məcbur etməklə özlərinə qarşı inamsızlıqda dəyişiklik edə bilərlər. Amma göründüyü kimi, bu dövlətlər üçün ədalət meyarı yenədə arxa plandadır. Belə səfərlərin mahiyyəti hər halda ABŞ, Rusiya və Fransa diplomatlarına çox yaxşı bəlli olduğu üçün onlar yenə də seyrçi mövqedə dayanmağa üstünlük verdilər. Bir mühüm məqamı xüsusi qeyd etməliyik ki, səfər çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin səfirləri kamera qarşısına keçib həqiqətləri söyləmək gücündə olmadıqlarını nümayiş etdirdilər. Bununla da erməni sevgilərini, münaqişənin 30 ilə yaxın dövrdə uzanmasının yardımçı olduqlarını təsdiqlədilər.”

“ABŞ, Rusiya və Fransa səfirlərinin səfərə qatılmamaları Azərbaycan üçün nəyisə dəyişmir. Realıq budur ki, 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan qalib, Ermənistan isə məğlub tərəfdir. Artıq Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ən əsası dövlətimizin başçısı İlham Əliyevin iqtisadi rayonların yeni bölgüsü ilə bağlı Fərmanı bunun bir daha təsdiqi, işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədrlərinə ciddi mesaj oldu” söyləyən baş redaktor qeyd edib ki, dövlətimiz postmüharibə dövrü ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərindən təklif gözlədiyi halda, onların ölkəmizdəki elçilərinin belə mövqe ortaya qoymaları əksinə, qurumun tərkibinin dəyişdirilməsi ilə bağlı fikirlərin əməli işdə öz təsdiqini tapmasını qaçılmaz edir.”



## Banklarda dolların alış-satışı qadağan olunur?

**“Banklarda dolların alışı və satışına müəyyən məhdudiyyətlərin və ya hər hansı bir limitin qoyulması ilə bağlı tez-tez narahatçılıqlar olur. Amma hal-hazırda belə bir narazıçılıq yoxdur”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib.**

Onun sözlərinə görə, banklarda dolların alışı və satışına hər hansı bir limit, məhdudiyyət qoyularsa, bu qara bazarda qiymətlərin artmasına, insanlar arasında ajiotajın, növbəti devalivasiyanın baş verə bilməsinə gətirib çıxaracaqdır: “Bu da qara bazarın canlanmasına səbəb olacaq. Beləcə insanlar əlində olan Azərbaycan manatını sürətli şəkildə dollarla dəyişdirməyə çalışacaq. Bununla bağlı hər hansı bir qərar verərkən çox həssaslıqla davranmaq, düşünmək lazımdır. Dolların alışı və satışına müəyyən məhdudiyyətlərin və ya limitin qoyulması çox önəmli strateji məsələdir”.

Asif İbrahimov həmçinin qeyd edib ki, dolların alışı və satışına məhdudiyyətlərin və ya limitin qoyulması məsələsi ilə xüsusilə ciddi davranmaq lazımdır: “Azərbaycanda növbəti devalivasiyanın hazırki ilin sentyabr-oktyabr ayına qədər baş verə biləcəyi ehtimalına inanmıram. Proqnozlara görə, bu qiymətlər stabil olaraq qalacaqdır”.

***Arzu Qurbanzadə***

---

## Səfirin dedikləri ermənilərdə niyə aqressiya yaradıb?



“Ümumiyyətlə, Ukrayna dövlətinin rəsmi mövqeyi ondan ibarətdir ki, Qarabağ bütünlükdə Azərbaycan ərazisidir. Buraya istər indiki sülhməramlıların nəzarət etdiyi, istərsə də işğaldan azad olunan ərazilər daxildir. Bunu ən yüksək səviyyədə Ukrayna rəsmilərinin dilindən hər zaman eşitmişik. Təbiidir ki, Ukrayna səfirinin bu cür fikirlər işlətməsi, Azərbaycana qarşı mehriban münasibət göstərməsinin kökündə də, Azərbaycanın Ukraynaya qarşı mehriban dost münasibəti dayanır. Yəni, bu onu göstərir ki, Azərbaycanın dünyada düşmənindən çox dostu var. Bunların arasında da Ukraynanı xüsusi qeyd etmək lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib.

Onun sözlərinə görə, əvvəllər belə bir fikir formalaşmışdı ki, Azərbaycana yalnız müsəlman dövlətləri dəstək verir: “Amma son proseslər onu göstərir ki, bu fikir yalnışdır. Hətta, xristian dövlətləri belə bu məsələdə Azərbaycanla həmrəylik nümayiş etdirirlər. Necə ki, bu sonuncu səfər çərçivəsində görüldü, hesab edirəm ki, bizim üçün önəmli olan Azərbaycanın gələcək strateji hədəflərini daha dəqiq müəyyən etmək və buna doğru iri addımlarla irəliləməkdir. Hansı dövlətin hansı münasibətdə olmasının prinsipcə bizim üçün heç bir əhəmiyyəti yoxdur. Məlum, məsələdir ki, onlarla ermənilər arasında əlaqələr mövcuddur. Onların Azərbaycanın siyasi və iqtisadi inkişafına marağı yoxdur”.

***Ayşən Vəli***

## “Mətbuat günü bu il çox təntənəli keçiriləcək”




“22 İyul Azərbaycanda Milli Mətbuat Günü elan olunduqdan sonra ölkəmizdə həm Ümummilli lider Heydər Əliyevin, həm də cənab Prezident İlham Əliyevin dövründə mətbuatla bağlı çoxlu sərəncamlar imzalanıb”. Bunu SİA-ya açıqlamasında “525-ci” qəzetin Baş redaktoru Rəşad Məcid deyib.

Baş redaktorun sözlərinə görə, mətbuat ölkəmizdə hər zaman diqqət mərkəzində olub: “Milli Mətbuat Günündə jurnalistlərə xüsusi önəm verilib, mətbuat nümayəndələrinin fəaliyyəti qiymətləndirilib və mükafatlandırılma aparılıb. Onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı heç bir yerdə görülməyən hadisələr baş verib. İki dəfə jurnalistlərin mənzillə mükafatlandırılması prosesi həyata keçirilib. Eyni zamanda, yazılı mətbuata dəstək göstərilib və dövlət jurnalistlərə təltiflər, mükafatlar verib. Bu isə dövlətin jurnalist əməyinə verdiyi qiymətin nəticəsidir. Bu il yeni “Media haqqında” qanunun hazırlanması barəsində Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı var. Medianın İnkişafı Agentliyinin yaranması görülən yeni işlərin xəbərçisidir və bu istiqamətdə fəal çalışır. İndi jurnalist adına iddia edənlər çoxdur. Sosial şəbəkələrdə blogger, bir nəfərlik saytlar, “Youtube” kanalları istifadə edənlər özlərini jurnalist kimi təqdim edirlər. Bu mənada jurnalist dairəsinin müəyyənləşdirilməsi üçün yeni “KİV haqqında” qanunda yeni maddələr var. Bu maddələrdə jurnalistin kimliyi əks olunub. Eyni zamanda, media subyektləri barədə də xüsusi bənd var. Hesab edirəm ki, bu qanun qəbul edildikdən sonra gələcəkdə bizim dövlətin mediaya dəstəyi xüsusi formasını alacaq. Yenə əvvəlki kimi həm ənənəvi mətbuata, həm də jurnalistlərin əməyinin dövlət tərəfindən tam şəkildə dəstəklənməsinin şahidi olacağıq.

Milli Mətbuat günündə çox güman ki, tədbirlər keçiriləcək. Medianın İnkişafı Agentliyinin müsabiqəsinin qalibləri müəyyənləşəcək. Dövlət qurumları heç vaxt jurnalistləri yaddan çıxartmır və jurnalistlərə, mətbuat nümayəndələrinə təbriklər ünvanlayır. Bu il də mətbuat günümüz çox “qaynar” şəkildə təşkil olunacaq”.

***Qönçə Quliyeva***

# Tovuz döyüşləri - böyük qələbəmizin təməli



**44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad etdi və tarixi ədalət bərpa olundu. Azərbaycan xalqı Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşdi və xalq-iqtidar birliyi 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın işğaldan azad olunmasında böyük rol oynadı. Azərbaycanın güclü və müasir ordusu düşmənə gücsüz olduğunu və özgə torpağında hökmranlığın sonunun olmadığını bir daha göstərmiş oldu. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll edərək düşmənə məğlubiyyəti yaşatdı.**

Təbii ki, ermənilər Azərbaycan ordusunun gücünü dəfələrlə görmüşdülər və nə vaxsa məğlub olmaları qaçılmaz idi. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusunun qarşısında duruş gətirmələri ağılasığmaz idi. Xatırlatmaq yerinə düşər ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dövlət başçımız yorulmadan səylər göstərmiş, danışıqlar aparmışdır. Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olması istiqamətində, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində ardıcıl addımlar atmışdı. Münaqişənin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanırdı. BMT Təhlükəsizlik Şurası düşmənçilik aktlarının dərhal dayandırılmasını, işğalçı qoşunların Azərbaycan Respublikasının bütün işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Qətnamələrin heç biri Ermənistan tərəfindən yerinə yetirilmədi.

Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edildi. Əlbəttə ki, ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Həmin döyüşlərdə ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin gücü öz sözünü demiş oldu. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun göstəricisidir. Əlbəttə ki, Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi.



## TOVUZ DÖYÜŞLƏRİ ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN NÖVBƏTİ TƏXRİBATI İDİ

Ötən ilin iyulun 12-si günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutmasından artıq bir il ötür. Bu gün biz həmin tarixdən qalib xalq olaraq danışırıq. Bu, Ermənistan Silahlı Qüvvələrinin növbəti dəfə təxribatı idi. Bu, Ermənistan tərəfinin Azərbaycana qarşı artilleriya hücumunun əvvəlcədən planlaşdırılmasını bir daha göstərmiş oldu. Ermənistanın keçmiş prezidenti Robert Köçəryan dekabr ayında verdiyi açıqlamada Tovuz döyüşlərinin Ermənistan Silahlı Qüvvələrinin təxribatı nəticəsində başladığını bildirmişdi. Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısı alındı. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Ordusunun dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissəsi ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edildi. Düşmən hücumunun qarşısını alarkən Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu, general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Elçin Mustafazadə, Nazim İsmayılov, Xəyyam Daşdəmirov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov şəhid oldu. Ermənistanın artilleriya atəşləri nəticəsində Ağdam kəndinin 76 yaşlı sakini həlak oldu.Həmin günlərdə Ermənistan Silahlı Qüvvələri Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Əlibəyli və Hacallı kəndlərini ağır artilleriya silahlarından atəşə tutmağa başlayıblar. Daha intensiv atəş Ağdam kəndi istiqamətində olmuşdur. Dondar Quşçu kəndinin ərazisinə isə 20-dək top mərmisi düşmüşdür. Mərmilərdən ikisi dinc əhalinin yaşadığı əraziyə düşüb.

## DÜNYA ÖLKƏLƏRİ ERMƏNİSTAN SİLAHLI BİRLƏŞMƏLƏRİNİN AZƏRBAYCANIN TOVUZ BÖLGƏSİNƏ HÜCUMUNU QƏTİYYƏTLƏ PİSLƏDİ

Dünya bu döyüşlərə biganə qala bilmədi. Türkiyə Xarici İşlər Nazirliyi Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə bağlı bəyanat yaydı və Ermənistan silahlı birləşmələrinin Azərbaycanın Tovuz bölgəsinə hücumunu qətiyyətlə pislənilib. Rusiya Xarici İşlər Nazirliyi dərhal atəşi dayandırmağa çağırdı. Gürcüstan prezidenti 12-13 iyul tarixlərində Azərbaycan və Ermənistan sərhədində baş verən silahlı qarşıdurmaya görə narahatlığını ifadə etmiş oldu. Pakistan, Qazaxıstan, Moldova, Yaponiya, Böyük Britaniya kimi dövlətlər öz münasibətlərini ifadə etdilər və hərbi əməliyyatların dərhal dayandırılmasına çağırdılar. Türk Şurası, GUAM, ATƏT və digər təşkilatlar Tovuz rayonunun artilleriya atəşinə tutulmasını və beləliklə, bölgədə gərginliyin artmasını qətiyyətlə pisləmiş oldular.

## "BİZ BÜTÜN GÜCÜMÜZÜ SƏFƏRBƏR EDİB BU MÜHARİBƏDƏ QƏLƏBƏ QAZANARAQ DÜŞMƏNİ TORPAQLARIMIZDAN QOVDUQ"

Bu döyüşlər böyük qələbənin başlanğıcı oldu. Yaşından, tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir azərbaycanlı Vətən keşiyində dayanan, düşmənlə vuruşan əsgərə mənəvi, fiziki cəhətdən dayaq, arxa, ona silahdaş oldu. Yaranan hər bir çətin şəraiti gözə alaraq, vətənimiz Azərbaycanın ərazi bütövlüyünü canları və qanları bahasına olsa da belə qorumağa hazır olduqlarını göstərdilər. Azərbaycanın döyüşən əsgəri, hər birimiz sənin yanındıyıq, - dedilər. Ali Baş Komandanın əmrini gözləyirik. Üçrəngli ay-ulduzlu bayrağımızı işğaldan azad edəcəyimiz torpaqlarımıza tezliklə sancacağımıza inam sonsuz idi. Həsrətdən cadar-cadar olmuş Qarabağ torpağı yolumuzu gözləyirdi.

Düşmən təxribatlarına cavab olaraq həyata keçirilən uğurlu hərbi əməliyyatlar böyük qələbəyə gedən yolun əsasını qoydu. 44 günlük Vətən müharibəsi torpaqlarımızı işğaldan azad etdi. Şəhidlərimizin - mübarizlərin, əliflərin, poladların, ilqarların və neçə-neçə vətən övladlarının qisası qiyamətə qalmadı.44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini görmüş oldu. Müharibə dövründə ermənilərin mülki, dinc insanları hədəfə alınmasının bir daha şahidi olduq.

"Biz bütün gücümüzü səfərbər edib bu müharibədə Qələbə qazanaraq düşməni torpaqlarımızdan qovduq", - deyən Azərbaycan Prezidentinin bildirdiyi kimi, düşməni elə rəzil vəziyyətə qoyduq ki, onlar bizim qabağımızda diz çökdülər, ağ bayraq qaldırdılar və məcbur olub kapitulyasiya aktına imza atdılar. Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə start verilib. İnfrastruktur yenidən qurulur, yeni yollar çəkilir, abadlıq və bərpa işlərinə star verilib. Bütün bunları görən şəhidlərimizin ruhu şad və azad nəfəs alır. Azərbaycan bayrağı şəhid qanı ilə suvarılmış torpaqlarımızda dalğalanır.



***Nəzakət ƏLƏDDİNQIZI***

# "Elə biabırçı tələbə köçürülmələri edilirdi ki, adam özü utanırdı"





"İlk növbədə qeyd edim ki, Ali təhsil müəssisələrinin bakalavriat səviyyələrində təhsil alanların köçürülməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən elektron proqram təminatı tətbiq olunmaqla, mərkəzləşdirilmiş qaydada həyata keçirilir. Tələbələrin eyni tədris müəssisəsi daxilində ixtisasını və ya təhsil formasını dəyişməsi, eləcə də bir tədris müəssisəsindən digərinə köçürülməsi və tələbələr sırasından xaric edilmiş şəxslərin tələbələr sırasına bərpası (həqiqi hərbi xidmətdən tərxis edilmişlər və akademik məzuniyyətdə olanlar istisna olmaqla) qış və yay tətilləri dövründə aparılır. Mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün ali təhsil müəssisələrində (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla) təhsil alan tələbələrə şamil edilir. Bütün hallarda tələbələrin köçürülməsi (təhsil formasını və ixtisasını, təhsil aldığı məktəbi, şəhəri və ya ölkəni dəyişməsi) yalnız əsaslandırılmış səbəblər olduqda həyata keçirilə bilər. Birinci və ikinci kursda köçürülməyə icazə verilir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, tələbələrin bir dövlət ali təhsil müəssisəsindən digər dövlət ali təhsil müəssisəsinə, yaxud bir ixtisasdan digərinə köçürülməsi Təhsil Nazirliyinin razılığı ilə qış və yay tətili dövründə müvafiq ali məktəb rəhbərliyinin əmri ilə həyata keçirilir: "Mövcud qaydalara görə, tələbələrin bir ali məktəbdən digərinə köçürülməsinə yalnız əsaslı səbəblər olduğu halda (ailə qurduqda, sağlamlıqla bağlı problem olduqda, yaşayış yerini dəyişdikdə və s.) icazə verilir. Dövlət adından təsisçi funksiyalarını həyata keçirən digər nazirlik, dövlət komitəsi və ya idarələrin (bundan sonra - qurum) tabeliyində olan dövlət ali təhsil müəssisələrinə köçürülməsi və bərpası tabe olduqları qurumun və Təhsil Nazirliyinin razılığı ilə həyata keçirilir".

"2016-cı ildən etibarən Azərbaycanda tələbələrin ölkə daxilində və xaricdə yerləşən ali təhsil müəssisələrindən köçürülməsi, yaxud bir ixtisasdan digərinə dəyişdirilməsi elektron qaydada həyata keçirilir. Bu qayda eləcə də orta ixtisas təhsili müəssisələri tələbələrinin, magistratura səviyyəsində təhsil alanlara da aiddir. Bu o deməkdir ki, oxuduğu ixtisasdan razı qalmayan tələbə getmək istədiyi universitetin rektorunu, prorektorunu, dekanını "görmədən" bu istədiyi həyata keçirə bilər. Amma indiyə qədər bu problemi həll etmək üçün 99 faiz qeyd olunan instansiyaları "görməli" idin. Təəssüf ki, bir neçə il əvvəl elə biabırçı tələbə köçürülmələri edilirdi ki, adam özü utanırdı. Məsələn, solo oxumaq, xalq çalğı alətləri ixtisasından birbaşa universitetin tarix, hüquq fakültəsinə köçürülmə mümkün idi. Əlbəttə ki, bu ancaq kimlərisə yaxından və dərindən "görmək"lə olurdu. Amma indi isə bu proses qış və yay tətili dövründə həyata keçirilir. Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən qəbul imtahanlarında tələbənin topladığı bal qəbul olunduğu ildə köçürülmək istədiyi ali təhsil müəssisəsində müvafiq ixtisas üzrə minimal keçid balından az olmamalıdır. Həmçinin tələbənin qəbul olunduğu və köçürülmək istədiyi ixtisaslar DİM tərəfindən müəyyən olunan eyni ixtisas qrupu daxilində olmalıdır. Yəni, siz qəbul olduğunuz ildə yaxşı bal toplamısız, amma doğru ixtisas seçimi etməmisiniz, ya da oxuduğunuz ixtisas ürəyinizcə deyilsə, Təhsil Nazirliyi imkan verir ki, balınız uyğun gəlirsə, rahatlıqla, heç kimi görmədən, xərcə düşmədən köçürülmənizi edin".

Kamran Əsədov sözlərinə belə davam edib: Qeyd edim ki, 2021-ci ilin qış tətili dövründə bakalavriatura üzrə yerli ali təhsil müəssisələrindən 1650, xaricdəki universitetlərdən 26, magistratura üzrə 15, orta-ixtisas təhsili üzrə 186 nəfərin sorğusuna, yay tətili dövründə bakalavriatura üzrə 914, magistratura üzrə 6, orta-ixtisas təhsili üzrə 101 nəfərin sorğusuna müsbət cavab verilib. Bu o deməkdir ki, Təhsil Nazirliyi hər il "qara bazarda" olan milyonlarla manat pulu yox edib. Çünki bu köçürülmələr əvvəllər heç də ucuz qiymətə edilmirdi. Təsəvvür edin ki, təkcə bakalavr pilləsi üzrə 15000-dən çox təmənnasız, tələbənin heç bir məmuru görmədən köçürülməsi edilib. Əvvəl isə bu 15000 nəfər azı 10-20 min manat kimlərisə "görməli" idi. Görün, hansı məbləğdə vəsait qazanılırdı. Hələ xarici ölkələrdə təhsil alan tələbələrin köçürülməsini demirəm. Onlar Dərbənd, Dağıstan, Ukrayna, Gürcüstan və digər ölkələrin universitetlərinə gedirdilər. Bir il sonra isə kimlərisə "görüb" ölkəyə gəlirdilər. İndi bunun da qarşısı alınıb. Amma pisi bilirsiz nədir? 2016-cı ildən bəri keçirilən tələbə köçürülməsindən istifadə edən 5 minə yaxın insan bu şəffaf qaydalardan istifadə edib, amma bu barədə fikirlərini demirlər".

"Təsəvvür edin ki, Təhsil Nazirliyinin bu şəffaf işi nə qədər rektorun, prorektorun və universitetlərin digər əməkdaşlarının "bazarını bağlayıb". Ona görə də, onlar Təhsil Nazirliyini bəyənmir, qəbul etmir, bu qaydaların ləğvini istəyirlər. Ona görə də, şəffaf şəkildə yeni qaydalardan istifadə edənlər bu kimi məsələləri dilə gətirib təşəkkür etməlidir".

"Xatırladım ki, indiyədək Azərbaycanda, həmçinin magistratura pilləsində tələbələrin köçürülməsi mümkün deyildi. Artıq biz Boloniya sisteminə keçmişik və burada semestrin müddəti deyil, kreditlərin sayı önəmlidir. İndiyədək kredit sistemi tam şəkildə tətbiq olunmadığı üçün magistratura pilləsində köçürmələrə imkan verilmirdi. Amma indi kredit sistemidir. Həmin kredit sistemini istənilən universitetdə tamamlamaq mümkündür. İlk dəfə olaraq magistratura pilləsində tələbələrin köçürülməsinə icazə verilməsi mühüm addımdır".

"Digər bir məsələ isə bölgələrdə təhsil alan tələbələrin Bakı şəhərinə köçürülməsinə məhdudiyyətlərin tətbiq olunacağıdır. Yalnız region daxilində köçürmə ola bilər. Məsələn, Bakı yalnız Bakı daxilində köçürmə prosesində iştirak edə bilər. Hesab edirəm ki, bu məhdudiyyət düzgün deyil. Tələbələrin hüquqlarının müəyyən qədər sıxışdırılmasıdır. Ümumilikdə, tələbələrin köçürülməsi ilə bağlı bütün məhdudiyyətlərin aradan qaldırılması mühüm addım olar".

***Ayşən Vəli***




ARAŞDIRMA - FAKTLAR

# DVD icarəsi köşkündən Netflix-ə gedən yol

**Dünya film sənayesində lider olan və ona uzun müddətdir dəstək olan Netflix barədə fikirlər birmənalı deyil. Bir çox dövlət başçısı Netflixin bayağılaşmaya səbəb olduğunu iddia edərək onu ölkə səviyyəsində qadağan etməyə cəhd edib. Onlar öz fikirlərinə fərqli yollarla haqq qazandırıblar. Bəzilərinin məqsədi sadəcə Amerika şirkətini boykot etməkdir. Bir çoxları isə Netflixi əxlaqa zidd, şiddət və s. məzmunları yaydığı üçün qadağan etməyə çalışır. Qlobalizasiya dünyasının kapitalist maraqlarını əsas tutan Netflix isə bütün bu əngəllərə baxmayaraq irəliləyir. İndi isə onun yaradılışı haqqında.**

Netflix, mərkəzi Kaliforniya ştatında yerləşən texnologiya, media xidmətləri təminatçısı və istehsal şirkətidir. 1997-ci ildə Kaliforniyada Reed Hastings və Marc Randolph tərəfindən qurulmuşdur. Şirkətin əsas işi pullu abunə əsaslı video-film yayım xidmətidir. Abunəçilər ödəniş etdikdən sonra, arxivdəki müxtəlif filmləri və serialları onlayn izləyə bilərlər. Bu arxivdə Netflix-in filmləri və TV şouları da var. 2020-ci ilin aprel ayı etibarilə Netflix-in dünyada 193 milyon, ABŞ-da 73 milyon ödənişli abunəsi var. Netflix xidmətləri Çin (yerli məhdudiyyətlər səbəbi ilə), İran, Suriya, Şimali Koreya və Krım (ABŞ-ın sanksiyaları səbəbiylə) xaricində dünya miqyasında mövcuddur. Firmanın Türkiyə, ABŞ, Braziliya, Hollandiya, Hindistan, Yaponiya və Cənubi Koreyada ofisləri var. Netflix, Amerika Film Kino Birliyinin üzvüdür.

Netflix-in ilk iş modeli DVD satışı və icarəsi ilə bağlı idi. Şirkətin qurulmasından təxminən bir il sonra, Hastinqs, post vasitəsi ilə DVD icarəsinə üstünlük vermək üçün DVD-lərin satışını tamamilə dayandırdı. 2007-ci ildə Netflix, video yayım xidməti vasitəsi ilə internet üzərindən filmləri təqdim etməyə başladı, eyni zamanda DVD və Blu-ray filmlərinin icarəsi işini də davam etdirdi. Kanadaya, Latın Amerikasına və Karib dənizinə qədər genişlənərək 2010-cu ildə beynəlxalq səviyyədə xidmətə başladı. 2013-cü ildə "House of Cards" adlı ilk serialı ilə film istehsalına da başladı.

2012-ci ildən bəri Netflix həm filmlərin, həm də televiziya seriallarının prodüsseri və distribyutoru olaraq daha aktiv rol alıb. Nəticədə, Netflix arxivinə bir çox "Netflix Originals" da əlavə edildi. 2016-cı ilin yanvar ayından etibarən Netflix 190-dan çox ölkədə fəaliyyət göstərir. Netflix, bu baxımdan 2016-cı ildə 126 orijinal seriya və film nəşr edərək bütün televiziya kanallarını üstələyib. Şirkətin 190 ölkə üçün yeni film istehsalı və məzmun hüquqlarının alınması səyləri nəhəng borclanmalarla nəticələndi: şirkətin borcu 2016-cı ildəki 16.8 milyard dollardan 2017-ci ilin sentyabr ayında 21.9 milyard dollara yüksəldi. Bunlara baxmayaraq 2018-ci ilin oktyabrında Netflix yeni maliyyə məsələlərinə dəstək üçün əlavə 2 milyard dollar borc alacağını açıqlayıb. 10 iyul 2020-ci ildə isə Netflix bazar dəyəri səviyyəsinə görə, ən böyük əyləncə - media şirkəti oldu.

Beləliklə bu nəhəng qlobal film şirkətini milyardlarla borcuna rəğmən dayandırmaq mümkün deyil. İnternet erasının verdiyi azadlıq dövlətlərə Netflix barədə heç bir tədbir görməyə icazə vermir. Deməli qloballaşan hər şey kimi Netflix də öz ölümsüzlüyünü qarantiləyib. Belə ki, onun sonuna çıxa biləcək tək varlıq digər bir film sənayesi ilə məşğul olan şirkət ola bilər. Beləliklə insanların bu və ya digər film portallarının təsirinə düşməməsi, əxlaqi cəhətdən pozulmaması üçün sağlam iradəyə sahib olması mütləqiyyətə çevrilir.

Azərbaycanın Netflix-lə əməkdaşlığı isə ondan xəbər verir ki, xalq olaraq qlobalizasiyadan heç də çəkinmirik. Birmənalı olaraq qəbul edirik ki, yad, mənfi təsirlər yalnızca boşluqları doldura bilər. Azərbaycan filmlərinin, dahi Nizaminin əsərləri nəzdində çəkilmiş filmlərin Netflixdə olması isə daha böyük bir uğurdur. Beləliklə qlobal pəncərədən dünyaya açılan film sənayemiz, yerli filmlərimizə, aktyor və aktrisalarımıza böyük şanslar yaradır.

***Zərdüşt Quluzadə***

# "Azərbaycan-Türkiyə-Gürcüstan birgə təlimləri..."

HƏRBİ EKSPERT AÇIQLADI

"Azərbaycan-Türkiyə-Gürcüstan təlimləri artıq ənənəvi xarakter daşıyır. Hər il bu təlimlər keçirilir və bu təlimlərin keçirilməsinin göstəricisi odur ki, 3 ölkənin münasibətləri yaxındır". Bu sözləri SİA-ya açıqlamasında hərbi ekspert Şair Ramaldanov deyib.

Onun sözlərinə görə, digər tərəfdən bütün bu təlimlərin keçirilməsi Azərbaycanın da, Türkiyənin də, Gürcüstanın da regionda sülhü, sabitliyi qorumaq məqsədi daşıyır: "Təbii ki, dünyada cərəyan edən terrorçuluqla mübarizə tədbirləri və terrorçuluğun aktivliyini müşahidə edirik. Əlbəttə bu təlimlər də anti-terror əməliyyatları ilə bağlı və yaxud terrorçuluğa qarşı tədbirlərlə bağlı olacaqdır. Digər tərəfdən də Azərbaycan-Türkiyə-Gürcüstan ərazisindən enerji proyektləri, enerji kolidorları keçir. Düşünürəm ki, bu təlimlər planı öz mühüm rolunu oynayacaq. Bu təlim Zəfər qələbəsindən sonra keçirilən ilk üçtərəfli birgə hərbi təlimdir. Döyüş təcrübəsi qazanmış hərbiçilərimizin təlimdə iştirak edərək öz bacarıqlarını, təcrübələrini digər təlim iştirakçıları ilə bölüşmələri maraqlı olacaqdır".



***Arzu Qurbanzadə***

# "Reket jurnalistlər"ə qarşı mübarizə bu üsulla aparılacaq

## MEDİA RƏSMİLƏRİ AÇIQLADI

**Son günlər gündəmi məşğul edən məsələlərdən biri də "jurnalist" adı altında reketliklə məşğul olan insanların peyda olmasıdır. Düzdür, müxtəlif dövrlərdə mətbuatda bu kimi tendensiyalar yaşanıb. Lakin görülən adekvat tədbirlər nəticəsində "reket jurnalistika"sının qarşısı xeyli dərəcə alınıb. Ancaq təəssüf ki, bu günlərdə bu problem yenidən baş qaldırıb və məsələ o yerə çatıb ki, bu işbazlar cəmiyyətin həssas təbəqəsi olan şəhid ailələrinin belə qapısını döyüblər və özlərinə məxsus həyasızlıqla şəhid ailələrindən müəyyən çəkiliş müqabilində pul da tələb edirlər. Adını belə qoya bilmədiyimiz bu cür alçaq hərəkətlər mətbuat işçilərini də narahat etməyə bilməzdi. Bəs, mövzu barədə media kapitanları nə düşünür? "Reket jurnalistika"sı ilə hansı mübarizə üsullarından istifadə etmək lazımdır? SİA məsələ barədə media kapitanları ilə gerçəkləşdirdiyi sorğunu təqdim edir.**



**Mətbuat Şurasının sədr müavini Umud Rəhimoğlu:** "Jurnalistikada "reketçilik" yeni məsələ deyil. Bu böyük bir bəla, böyük bir fəlakətdir. Çox təəssüf ki, reketçilik son illər Azərbaycan mediasında iyrənc bir vəziyyətə gəlib çıxıb. Məsələ burasındadır ki, sosial medianın inkişafı bu istiqamətdə işbazların işlərini biraz da yüngülləşdirib. Print mediasında "reketçiliyin" necə mövcud olması barədə 80-ci illərdə jurnalistikaya gəlmiş bir insan kimi deyə bilərəm ki, sovet dövründə də rüşvət alan jurnalistlər vardı. Çox az sayda idi və bütövlükdə jurnalistika mühitində də bu insanlara çox pis baxırdılar. 1990-cı illərin sonunda jurnalistikada "reketçilik" daha çox tüğyan edirdi. Lakin son illərdə internet medianın verdiyi imkanlardan müəyyən şəxslər kifayət qədər yararlandılar. Araşdırarkən ortaya çıxır ki, bir şəxsə bağlı yeddi-səkkiz internet saytlar var və yaxud bir şəxsin nəzarətində bir neçə internet televiziyaları formalaşıb".



U.Rəhimoğlu vurğulayıb ki, bu işlərlə məşğul olan insanlar özünü jurnalistikaya bu və ya digər şəkildə soxuşdurmuş insanlardır: "Artıq iş o yerə gəlib çatıb ki, şəhid ailələrinin qapıları döyülür, onlardan müəyyən çəkilişilər müqabilində hansısa ödənişlərin edilməsini tələb olunur. Bunun nə demək olduğunu sözlə ifadə etməkdə çətinlik çəkirəm. Jurnalistikaya nə qədər sayqısız olasan ki, canı-qanı bahasına torpaqlarımızı azad etmiş insanların qapısını döyəsən və hansısa təmənna güdəsən. Bunu edən ancaq reket jurnalistikası ola bilər. Hamımız bu jurnalistikaya yox deməliyik. Bizim qanunvericiliyimizdə bu istiqamətdə ciddi addımlar atılmalıdır. Biz sözün dəyərdən düşməsinə və jurnalistikamıza başıaşağılığı gətirən bu cür addımların qarşısında qətiyyətlə dayanmalıyıq".

**Mətbuat Şurası sədrinin müavini Müşfiq Ələsgərli:** "Mediadan neqativ istiqamətlərdə istifadə edən qruplar hansı ki, biz onlara "reket jurnalistlər" deyirik uzun müddət Azərbaycan mediası sırasında olublar. Son zamanlar internet medianın inkişafı ilə bağlı olaraq bu qrupun fəaliyyəti daha da genişlənib və onlar internetdə özləri üçün münbit şərait tapıblar. Yəni, sosial şəbəkələr üzərində heç bir prosedur olmadan "KİV qurumu" yaradırlar və onun vasitəsilə fəaliyyət göstərərək özlərini jurnalist kimi təqdim edib cəmiyyətlə istədikləri kimi davranırlar. Şəhid ailələrindən maddi maraq güdmək, onlar üçün hər hansı bir təbliğat qarşılığında pul ödənişi tələb etmək "reketliklə" yanaşı mənəviyyatsızlıqdır. Bu, həmin şəxslərin nəinki, jurnalistika adına, həm də insanlıq adına utancverici bir zümrə olduqlarının göstəricisidir. "Reket jurnalistlər"ə qarşı mübarizə aparmaq üçün 4 qolun birgə hərəkət etməsinə ehtiyac var. Birinci məsələ qanunvericilikdir ki, bunlara qarşı mübarizə aparmaq üçün təkmil olmalıdır. İkinci kompanent dövlət qurumları- yəni, hüquq-mühafizə orqanlarıdır. Üçüncü kompanent medianın özünü tənzimləmə qurumları- Mətbuat Şurası, Milli Teleradio Şurası, Medianın İnkişafı Agentliyi ümumilikdə media cəmiyyətidir. Dördüncü kompanent isə cəmiyyətin özüdür".





M.Ələsgərli vurğulayıb ki, cəmiyyət bu cür məsələlərə qarşı aktiv reaksiya verməlidir və bu cür hallarla rastlaşanda dərhal ya hüquq-mühafizə orqanlarına, ya da medianın özünü tənzimləmə qurumlarına mütləq şəkildə məlumat verməlidirlər: "Amma bu məsələlərlə bağlı qanunvericilikdə müəyyən boşluqlar vardı, çünki Azərbaycanda mövcud olan KİV-ləri haqqında qanun onlayn medianın tənzimlənməsində müəyyən boşluqlar vardı və bu sahəni tamamilə əhatə edə bilmirdi. İndi yaxşı haldır ki, cənab Prezidentin idarəsi ilə ölkədə yeni "Media haqqında" qanun hazırlanır və həmin qanunvericilik onlayn medianın da fəaliyyətini tənzimləməyi nəzərdə tutur. Beləliklə, onlayn media sahəsində mövcud olan bu xaotik durum artıq aradan qaldırılacaq və kimin jurnalist, kimin isə özfəaliyyətlə məşğul olduğu aydın şəkildə görünəcək. Sözügedən qanun imkan verəcək ki, bu şəxslər arasındakı fərqi müəyyən etmək mümkün olsun. Beləliklə, bayaq çərçivəsini cızdığımız həlqə tamamlamış olacaq. Yəni, həm qanunvericilik təkmil olacaq, həm medianın özünü tənzimləmə qurumları, həm dövlət qurumları, həm də cəmiyyət özü birlikdə bu cür neqativ hallara qarşı mübarizə aparmaqla məsələnin kökünü kəsə biləcəklər".

**"Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev:** "10 il əvvəllə müqayisədə həqiqətən jurnalistikada "reketçilik" üslubunun və bu işlə məşğul olan jurnalistlərin səviyyəsi xeyli dərəcədə azalıb. Hətta, son günlərdə bəzi faktlar olmasaydı "reket jurnalistika"nın ümumiyyətlə sıfıra enməyindən danışmaq mümkün idi ki, bu da aparılan hərtərəfli işlərin nəticəsi olaraq meydana gəlib. Yəni, bir tərəfdən ictimai qınaq mexanizminin işləməsi, digər tərəfdən Mətbuat Şurasında aparılan müzakirə və tədbirlər, həmçinin əsasən dövlət orqanlarının həyata keçirdiyi tədbirlər nəticəsində "reket jurnalistika"da minimuma qədər enmə müşahidə olunurdu. Hətta, reket jurnalistika ilə məşğul olanlar bütünlüklə özünü cəmiyyətin gözündən gizlətməyə və bunu özləri üçün bir utanc kimi qiymətləndirməyə başlamışdılar ki, bu da yaxşı tendensiya idi. Lakin təəssüf ki, Vətən müharibəsindən sonra xüsusilə də şəhid ailələri və qazilərin problemləri üzərində bunun kimi həssas mövzularda oynamaq istəyən müəyyən jurnalistlər oldu və müyyən addımlar atıldı. Aydın məsələdir ki, yaranmış indiki boşluğun nəticəsi idi".

A.Quliyev vurğulayıb ki, "Media haqqında" yeni qanunvericiliyin hazırlanması və köhnə qanunvericilikdən yeni qanunvericiliyə keçid mərhələsində özünəməxsus boşluğun yaranması müəyyən qədər reket jurnalistikasına rəvac verib: "Eyni zamanda cəmiyyətdə sosial iqtisadi vəziyyətin bir qədər pisləşməsi və müəyyən peşə sahiblərinin dolanışığının bir qədər çətinləşməsi də buna müəyyən qədər şərait yaradır. Nəhayət, onu da deyim ki, Vətən müharibəsindən sonra bütün cəmiyyətin diqqətinin düşmən üzərində qələbəyə yönəlməsinə baxmayaraq qazilər, şəhid ailələri və bu kimi təbəqələrlə bağlı mövzular daha çox həssas olmağa başlayıb ki, bu həssaslıqdan istifadə etmək istəyən şəxslər peydə olub. Ona görə də son günlər cəmiyyətin həssas təbəqələri ilə bağlı "reket jurnalist" hərəkətlərinin hiss olunması daha çox subyektiv amillərlə bağlı olsa da bir qədər obyektiv səbəblərində var ki, əminəm bunlar aradan qaldırıla bilər".

**"Şərq Qəzeti"nin baş redaktoru Akif Aşırlı:** "Reketlik" ümumiyyətlə peşəkar jurnalistika ilə bir araya sığmayan yoldur. Bu cür davranışların mətbuata heç bir adiyyatı yoxdur. Onlar sadəcə olaraq müəyyən cinayət əməlləri törədən insanlardır və həmin şəxslər qanun qarşısında məsuliyyət daşımalıdır. Ona görə düşünürəm ki, təkcə reket jurnalistikası ilə məşğul olan, mətbuatın şərəfli adına ləkə gətirən zümrə ilə mübarizə təkcə mətbuatın deyil, həm də dövlətin və cəmiyyətin işidir".



A.Aşırlı vurğulayıb ki, onlar bu əməllərinə görə cinayət məsuliyyəti daşımalıdırlar: "Çox təəssüf ki, bu "reket jurnalistlər"in sayı dünən də çox idi, bu gün də kifayət qədərdir. Görünür ki, asan yolla pul qazanmaq istəyənlərin sayı çoxalıb. Hesab edirəm ki, bu məsələ ilə əlaqədar qanunlar çərçivəsində çox kəskin mübarizə aparılmalıdır".

***Aysel Məmmədova***

# "TikTok"da videolar niyə silinir?

## SOSİOLOQ VƏ EKSPERT DANIŞDI

**"Sosial şəbəkələr günümüz üçün çox böyük təhdid yeri hesab olunur. Bildiyiniz kimi, bir çox ölkələrdə sosial şəbəkələrlə bağlı müxtəlif formalı qadağalar tətbiq olunur. Bəzən isə sosial şəbəkələr özləri siyasətlərində dəyişiklik edirlər. "TikTok"un bu addımı da belələrindəndir". Bu sözləri SİA-ya açıqlamasında İKT üzrə ekspert Rəşad Cəfərov deyib.**



**Onun sözlərinə görə, ümumiyyətlə "TikTok"a münasibət birmənalı deyil:** "Bu tip videoların silinməsi məsələsinə gəldikdə isə doğru addım kimi qiymətləndirirəm. Açıq platformalar olsa da etik davranış qaydalarına istifadəçilər özləri də riayət etməlidirlər. Bu tip videoların silinməsi nümunəsi digər bəzi platformalarda da rast gəlinir. Qalanlarına da tətbiq olunmalıdır".

Ekspert sözlərinə belə davam edib: "Xüsusən də zorakılıq hallarına rast gəlinən, etik davranış qaydalarına zidd olan videolar digər istifadəçilərin qarşısına çıxmadan silinməlidir. Ümumiyyətlə istifadəçilərə filtirləmə imkanları yaradılmalıdır. İstifadəçi özü də hansı mövzulu paylaşımları izləmək istədiyini seçə bilməlidir".

**Məsələ ilə bağlı sosioloq Asif Bayramov da münasibət bildirib:** "Ümumiyyətlə sosial media platformaları cəmiyyətdə informasiyanın yayılmasına müəyyən qadağalar tətbiq etməlidir. Çünki, mətbuatda söz azadlığı ilə bərabər hər bir vətəndaşın da şəxsi həyatının qorunması haqqı və hüququ var. Çox zaman sosial media vətəndaşın bu haqqına müdaxilə edir. Təbii ki, hal-hazırda sosial şəbəkələrin və media platformalarının fəaliyyətinin qanuna uyğun tənzimlənməsi ilə bağlı müvafiq normativ hüquqi baza mövcud deyil. Bu təəssüf doğuran bir haldır. Bu boşluqdan istifadə edən sosial şəbəkə istifadəçiləri cəmiyyətdə müəyyən avtoriteti olan insanlara qarşı planlı şəkildə piar təşkil edirlər. Yəni, haqqında danışdığımız məsələ hər kəsin dediyi bir faktdır. Ona görə də, mən belə hesab edirəm ki, hər bir lokal cəmiyyət özünün milli dəyərlərini, milli əxlaq sistemini və digər fundamental dəyərlərini saxlamaq üçün sosial media platformasında onu aşındırmağa yönəlmiş fəaliyyət formalarına məhdudiyyət qoyaraq, qaydalar tətbiq etməlidir. Çünki, Azərbaycan cəmiyyətində sosial media ucbatından milli əxlaqımızın, milli ailə institumuzun və milli dəyərlərimizin son 10 ildə nə qədər sürətlə aşındığının şahidiyik".



Asif Bayramov sözlərinə belə davam edib: "Mən bir sosioloq, filosof, alim kimi və tətqiqatçı olaraq sosial platformaların üzərindən Azərbaycan xalqının milli tarixi dəyərlərinə zidd videoların təşkil olunduğunu açıq aşkar görürəm. Hesab edirəm ki, istənilən sosial media platforması cəmiyyətin mənəviyyatına yönəlmiş bu cür halların qarşısını alan məhdudiyyətlər tətbiq edə bilər".

"Ümumiyyətlə, sosial media yalnız informasiyanın sürətli yayılması üçün bir vasitə deyil, həm də dünyadakı qlobal güclərin bütövlükdə qlobalistlərin dünyada milli dəyərləri sıradan çıxarmaq və kosmoqonik insan yaratmağın tərkib hissəsidir. Ona görə bu mediaya bütün səviyyələrdə nəzarət tətbiq olunmalıdır".

***Ayşən Vəli***

# ABŞ, Rusiya və Fransa səfirləri səfərə niyə getmədilər?

Politoloq Samir Hümbətovun SİA-ya müsahibəsini təqdim edirik:



***- Bildiyimiz kimi, bu gün Tovuz döyüşlərinin ildönümüdür. Başda general-mayor Polad Həşimov olmaqla bir neçə hərbiçimiz şəhid olub. Bir çox insan Tovuz hadisələrini Vətən müharibəsinin başlanğıcı adlandırır. Siz bu barədə nə deyə bilərsiniz?***

- Bu, bir il ərzində Azərbaycanın həm xarici, həm də daxili siyasətində xeyli uğurlu addımlar atmasına şərait yaratdı. Təbii ki, hər hadisənin arxasında böyük hadisə dayanır. Biz uzun illər ərzində zəhmətlə yetişdirdiyimiz hərbiçilərin itirilməsi, onların şəhid edilməsi hadisəsini yaşasaq da, burada 44 günlük Qarabağ savaşının təməlinin atıldığının şahidi olduq. Elə məhz bu hadisələrdən sonra xalqımız arasında həm milli birlik və milli vəhdətin yaranması prosesi daha da sürətləndi. Dövlət və xalq arasında möhkəm bir bağ yarandı. Bu bağın nəticəsində də ölkə başçısı cənab Prezident İlham Əliyevin qətiyyətli qərarı ortaya qoyuldu. Allah bütün şəhidlərimizə rəhmət etsin. Bu allahın onlara böyük bir lütfüdür ki, onlar vətən yolunda şəhid olublar. Onların qəhrəmanlığı bir ilə, iki ilə, beş ilə yox, tarixə, illərə, əsrlərə sığacaq addımdır. Xüsusilə də, dünya miqyasında öz torpağı uğrunda şəhid olan çox az generallar var. Hesab edirəm ki, bu hadisə bizim nüfuzumuzu dünya dövlətləri arasında daha da qaldırdı və gələcək nəsillərə də örnək olaraq, şanlı tariximizin əsas qızıl səhifələrindən birinə çevrildi.

***- 9-10 iyul tarixlərində ölkəmizdəki diplomatik korpusun rəhbərlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfəri təşkil edilib. Burada diqqəti çəkən məqam Rusiya, ABŞ və Fransa səfirləri bu səfərdən imtina etdilər və ya yaxud da qatılmadılar. Nəzərə alsaq ki, sözügedən ölkələr həm də ATƏT-in Minsk qrupunun həmsədr ölkələridir, bunun arxasında hansı məqsəd dayanır?***

- Təbii ki, bununla bağlı dünən də sosial şəbəkədə qeyd apararaq bu məsələyə toxundum. Mən hesab etmirəm ki, burada təsadüf hansısa bir addım atılıb. Çünki, nəzərə alsaq ki, artıq Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələrinin sayca 7-ci səfəri idi. Sonuncu səfər cənab Prezident İlham Əliyevin birbaşa tapşırığı əsasında həyata keçirilirdi və burada həm də Prezidentin köməkçisi Hikmət Hacıyevin və birinci xanım Mehriban Əliyevanın bu səfərdə iştirakı idi. Bu onu göstərir ki, Azərbaycan hökuməti bu məsələdə böyük təşkilatçılıq missiyasını üzərinə götürmüşdü. Təəssüflə deyək ki, sözü gedən üç dövlətin diplomatik korpusunun nümayəndələri bu səfərdə iştirak etmədilər. Bunun da bir neçə səbəbi var. Birinci səbəb özlərini "neytral" göstərməyə çalışmaqdır. Yəni, onlar istəyirlər ki, Ermənistanla münasibəti də pis etməsinlər. Burada həm də özlərinin iç üzlərini göstərirlər. Eyni zamanda, məsələnin niyə 30 ildir uzandığının, münaqişənin niyə həll olunmamasının səbəbləri elə buradan ortaya çıxır. Digər məsələ isə həmin o üç dövlətdə erməni lobbisi çox güclü fəaliyyət göstərir. Hesab edirəm ki, burada bir də erməni lobbisini küsdürməmək siyasəti tuturlar. Təbii ki, bu məsələ dövlət tərəfindən ciddi qarşılanmalıdır. Aydın məsələdir ki, bizə dost və müttəfiq olan dövlətlər bu səfərdə iştirak etdilər. Bu səfərin daha geniş dünya miqyasına çıxmağına kömək oldular. Bu onu göstərir ki, Azərbaycan artıq bundan sonrakı mərhələdə dostunu və düşmənini daha yaxşı ayırd edəcək. Bu da Azərbaycanın gələcək xarici siyasətində hansı dövlətlərlə nə cür münasibət qurmağına olduqca böyük stimul yaradacaq.

***- Bu səfərə qatılmayanlarla bağlı bir neçə nüans diqqət çəkir. Münaqişə müddətində sözügedən ölkələr, yəni ATƏT-in Minsk qrupunun üzvləri Qarabağa dəfələrlə Ermənistan tərəfdən səfər ediblər. Onlar heç vaxt Azərbaycan tərəfdən Qarabağa getməyiblər. Bu birinci məqamdır ki, niyə onlar Qarabağ münaqişə dövründə getdikləri halda, indi getmək istəmirlər. İkinci məqam budur ki, ABŞ və Rusiya arasında hər zaman biri-birinə qarşı ziddiyyət olub. Bu gün də onlar arasında soyuq küləklər əsir. Amma sanki, ikisinin də ortaq nöqtələri Qarabağdır. Bu haqda nə deyə bilərsiniz?***

- Həm ikinci Qarabağ savaşı ərzində, həm ondan əvvəlki dövrlərdə dəfələrlə hər üç ölkənin nümayəndələrinin qeyri-qanuni şəkildə Ermənistan ərazisindən keçərək Qarabağa səfər etdiyinin şahidi olmuşuq. Bu həm mətbuatda yayılıb, həm də bizim özümüzün diplomatik kanallar vasitəsilə aldığımız məlumatlarda da var. Amma ikinci Qarabağ savaşının bitməsindən sonrakı mərhələdə Azərbaycan tərəfinin təşkil etdiyi bu səfərlərdə həmin sözügedən dövlətlərin nümayəndələrinin iştirak etməməsi onu göstərir ki, burada onlar açıq şəkildə birtərəfli mövqe tuturlar. Yəni, onlara hansı tərəf lazımdırsa onu da tuturlar. Burada bir də mənafe söhbəti var. Yəni, sözügedən ölkələrdə, Fransada da, ABŞ-da da erməni lobbisi olduqca güclü fəaliyyət göstərir və dövlət siyasətinə təsir etmək imkanına malikdir. Orada bir qayda olaraq hakimiyyətə gələn şəxslərin hakimiyyətə gəlməsində erməni lobbisinin dəstəyi olur. Hesab edirəm ki, onların içində bir də qorxu hissi var ki, erməni lobbisinin dəstəyini itirə bilərlər. Görünür, onlara xəbərdarlıq gəlir ki, Azərbaycanla hansısa səfərdə və ya tədbirdə iştirak etsəniz, bizdən dəstəyinizi kəsə bilərsiniz. Rusiya da artıq məlumdur ki, Cənubi Qafqazda özünün maraqlarını təmin etmək üçün ermənilərdən istənilən formada istifadə etməyə hazırdır. Bu məsələdə də Rusiyada müəyyən dairələrin açıq şəkildə Ermənistana dəstək verdiyinin şahidi olduq. Bu gün də bu dəstək davam edir. Nəzərə alsaq ki, Rusiyanın vəzifəli şəxslərinin milliyətcə ermənilərə daha yaxın olması da buna təkar verir. Bu onu göstərir ki, onların içində erməni sevgisi daha çoxdur. Ona görə də, Azərbaycanla bu tip məsələlərdə məsafəli davranmağa çalışırlar. Amma bizim üçün önəmli olan dost və müttəfiq dövlətlərlə münasibətlərin sıxlaşdırılmasıdır. Bunların içində Ukraynanın adını xüsusi qeyd etmək lazımdır. Hesab edirəm ki, bundan sonra Ukraynayla olan münasibətlərin strateji hədəfləri daha böyük olacaq.

***- Ukraynanın Azərbaycandakı səfiri həmin səfərlə bağlı öz sosial şəbəkə hesabında paylaşımlar edib. Bu da ermənilərdə qıcıq yaradıb. Bu mövzu haqqında nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, Ukrayna dövlətinin rəsmi mövqeyi ondan ibarətdir ki, Qarabağ bütünlükdə Azərbaycan ərazisidir. Bura istər indiki sülhməramlıların nəzarət etdiyi, istərsə də işğaldan azad olunan ərazilər daxildir. Bunu ən yüksək səviyyədə Ukrayna rəsmilərinin dilindən hər zaman eşitmişik. Təbiidir ki, Ukrayna səfirinin bu cür fikirlər işlətməsi, Azərbaycana qarşı mehriban münasibət göstərməsinin də kökündə, Azərbaycanın Ukraynaya qarşı mehriban dost münasibəti dayanır. Yəni, bu onu göstərir ki, Azərbaycanın dünyada düşmənindən çox dostu var. Bunların arasında da Ukraynanı xüsusi qeyd etmək lazımdır. Əvvəllər belə bir fikir formalaşmışdı ki, Azərbaycana yalnız müsəlman dövlətləri dəstək verir. Amma son proseslər onu göstərir ki, bu fikir yalnışdır. Hətta, xristian dövlətləri belə bu məsələdə Azərbaycanla həmrəylik nümayiş etdirirlər. Necə ki, bu sonuncu səfər çərçivəsində görüldü, hesab edirəm ki, bizim üçün önəmli olan Azərbaycanın gələcək strateji hədəflərini daha dəqiq müəyyən etmək və buna doğru iri addımlarla irəliləməkdir. Hansı dövlətin hansı münasibətdə olmasının prinsipcə bizim üçün heç bir əhəmiyyəti yoxdur. Məlum, məsələdir ki, onlarla ermənilər arasında əlaqələr mövcuddur. Onların Azərbaycanın siyasi və iqtisadi inkişafına marağı yoxdur.

***- Səfərə qatılmayan dövlətlər arasında Almaniya və Böyük Britaniya da var idi. Almaniya ilə bağlı bir neçə gün öncə, Zəngilan rayonu ərazisindən keçən Oxçuçayın çirklənməsi və burada vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərən Almaniya şirkətini səbəbkar kimi göstərirdilər. Açıq qalan suallarla bağlı biz Almaniyadan cavab istədikdə isə Almaniya mətbuatında Azərbaycana qarşı qara piar kampaniyası başladıldı. Bu kampaniyaların arxasında başqa hansı səbəblər dayanır?***

- Ümumiyyətlə, alman mətbuatında yaradılmış bu fikir yeni deyil. Yəni, uzun müddətdir davam edir. Amma son dövrlər bu daha çox inetnsivləşib. Almaniyanın bu cür addım atmasının arxasında Avropa Birliyinin Azərbaycanla tam ortaq razılığa gəlib, hansısa bir sənədi tam şəkildə işləyib ortaya qoymamasından da irəli gələ bilər. Nəzərə alsaq ki, Avropa Birliyinin əsas lokomativi məhz elə Almaniyadır. Bu da nəticə etibarı ilə Almaniyanın Cənubi Qafqazda hansısa formada maraqlarının təmin olunmasını kölgə altına sala bilir və salır da. Hesab edirəm ki, bu məsələyə görə Almaniyanın Azərbaycana qarşı bir qərəzli münasibətini görə bilərik. Düşünürəm ki, bu belə beynəlxalq münasibətlər sistemində normal qarşılanmır.

***- Üç ölkə səfirinin səfərdən imtina etməsi ilə bağlı bu səfirlərin məsələ ilə əlaqədar öncədən görüşü olub? Yoxsa bu tamamən təsadüfdür?***

- Hesab etmirəm ki, onlar arasında hər hansısa bir görüş və ya əlaqə olmasın. Burada bir razılıq var. Normalda onlardan ikisi getməyib, biri gedə və yaxud da əksinə ola bilərdi. Demək ki, bu həmsədrlər arasında ciddi bir razılıq əldə olunub ki, üçü də bu səfərdə iştirak etməmək qərarı verib. Çox yaxşı olardı ki, məhz sonuncu gün Azərbaycan rəsmiləri də bu üç dövlətin tədbirlərindən imtina etsinlər. Onlar da başa düşsün ki, biz Azərbaycanın dəvətinə müsbət cavab vermiriksə, onlar da bizə edəcək. Bu zaman onlar etdiklərini başa düşəcəklər.

***- Bəlkə də, arada üçüncü qüvvələr olmasa biz artıq Ermənistanla sülh bağlamışdıq. Siz bu barədə nə düşünürsünüz?***

- Bu mümkündür. Çünki, erməni əhalisi və Ermənistanın özündə belə nəinki Azərbaycan, hətta Türkiyə ilə bərabər normal siyasi diplomatik əlaqələrin qurulmasına can atan qüvvələrin olduğunu görmək olar. Hesab edirəm ki, Nikol Paşinyan özü belə bu gün atdığı addımlarda müəyyən mənada Azərbaycan-Türkiyə ilə münasibətlərin normallaşdırılması istiqamətində addımlar atır. Bu da prinspcə bizim üçün olduqca faydalı bir hərəkət ola bilərdi. Gələcəkdə Azərbaycan Ermənistan əlaqələrində normal diplomatik əlaqələrin qurulma ehtimalı daha çoxdur. Təbii ki, bunun arxasında birinci şərt olaraq sülh müqaviləsinin imzalanması və Ermənistanın qeyd şərtsiz olaraq Azərbaycanın ərazi bütövlüyünü tanıması durur.

***- Nikol Paşinyan 7 iyul Moskvaya Putinin əlini, ətəyini öpməyə gedib və öz hökümətinin formalaşması üçün Putindən tapşırıqlar alıb. Mətbuatda da yayılmışdı ki, Paşinyan Moskvadan artıq müəyyən tapşırıqlarla Ermənistana qayıdıb. Sizcə bu tapşırıqlar nədən ibarət ola bilər? Qarabağdakı problər öz həllini tapacaqmı?***

- Bu Paşinyanın Rusiyaya səfəri deyil, Putinin Paşinyanı yanına çağırması kimi dəyərləndirilir. Çünki, görüş zamanı Paşinyan özünü o formada aparırdı ki, sanki qul ağanın yanına gəlib. Paşinyan orada sadəcə olaraq məruzə edirdi. Ermənistan özünü həmişə kölə kimi göstərməyə hazırdır. Onların hər birində bu ruh var. Qaldı ki, bu görüş çərçivəsində hansı məsələlər müzakirə oluna bilərdi və olunub, hesab edirəm ki, burada birinci məsələ yeni formalaşacaq hökümətin tərkibində rusiyaönümlü qüvvələrin nümayəndələrinin olması məsələsidir. Bu mütləqdir. İkinci məsələ minaların xəritələrinin verilməsi məsələsidir. Ermənistana həm Azərbaycan, həm də Türkiyə tərəfindən basqıların olduğunu nəzərə alaraq həmin xəritələrin verilməsinin tərəfdarı ola bilər. Amma burada da bəzi nüanslar var: vaxtı mümkün qədər uzatmaq, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinə gedən yolu mümkün qədər ləngitmək, Ermənistanı və erməniləri bölgədə izale etmək.

***- Son vaxtlar Rusiya mətbuatında da belə bir xəbərlər yayılıb ki, Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına yenidən üzv olması ehtimalı var. Sizcə bu səsləndirilən fikirlər nə dərəcə realdır?***

- Əvvəllər Azərbaycanın bu təşkilata üzv olub-olmaması məsələsi hələ olmayıb. Amma bundan sonrakı mərhələdə aydın məsələdir ki, Azərbaycanın bu və ya digər formada bu təşkilata üzv olması görünmür. Ona görə ki, Azərbaycanın birinci xarici siyasət doktrinasında hər hansı bir hərbi bloka qoşulmamaq məsələsi var. Hətta biz NATO-nun illər öncə etdiyi təklifi belə qəbul etməmişdik. Yəni, hansısa məsələdə əməkdaşlıq və tərəfdaşlıq edə bilərik. Amma bu Azərbaycanın hər hansı bloka qoşulması demək deyil. Qaldı ki, siyasi baxımdan Azərbaycan üçün KTMT-nin üzvü olması o qədər də önəmli deyil. Çünki, Ermənistanın xarici KTMT üzvləri ilə əməkdaşlığı var. Burada xüsusilə, Belarusiya və Qazaxıstanı xüsusi qeyd etməliyik. Çünki, onlarla daha çox iqtisadi, hərbi və siyasi baxımdan əlaqələrimiz daha güclüdür. Hesab edirəm ki, Azərbaycanın heç bu məsələdə müşahidəçi olması belə o qədər əhəmiyyətli deyil. Çünki, Azərbaycanın tərəfdaş və müttəfiq dövlətləri var. Buraya xüsusilə, Türkiyə, Pakistan və İsrail daxildir.

***Ayşən Vəli***



## Fərqli vaksinlər vurdurmaq nə qədər düzgündür?

Tailandda yüzlərlə tibb işçisi "Sinovac"la vaksinlənməsinə baxmayaraq, virusa yoluxub. SİA xəbər verir ki, bundan sonra vaksinasiya proqramına dəyişiklik edilməsi ilə bağlı qərar qəbul olunub. Bundan sonra birinci doza "Sinovac" peyvəndi vurduran şəxs ikinci dozada "AstraZeneca" vurdura biləcək. Tibb işçiləri 2 doza vaksin vurdurduqdan sonra üçüncü dozada fərqli vaksin vurdura biləcəklər. Fərqli vaksin onlara ikinci doza vaksindən 3-4 həftə sonra vurulacaq. Hələlik ölkədə fərqli vaksinlərdən "AstraZeneca" əlçatandır. Bundan başqa Pfizer vaksini ABŞ tərəfindən tezliklə yardım kimi göndəriləcək. Xatırladaq ki, Tailand hökuməti ilk dəfə Çindən "Sinovac"ı tibb işçilərini vaksinasiyadan keçirmək üçün almışdı.

***Turqay Musayev***

# Ermənistanda “qaşınma” prosesi başlayıb?

## Nikol Paşinyanın köməkçisini Xankəndiyə göndərməsi suallar doğurur

**Ermənistanın baş naziri vəzifəsini müvəqqəti icra edən Nikol Paşinyan köməkçisi Qagik İsaxanyanı Qarabağa - Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərinə göndərir. SİA xəbər verir ki, bu barədə verilən qərar Ermənistan hökumətinin rəsmi saytında da yer alıb. Erməni KİV-lərinin yazdıqlarına görə, Paşinyanın köməkçisi İsaxanyan Xankəndiyə “dördgünlük işçi səfəri” çərçivəsində ezam olunub. Həmçinin bildirilir ki, o, Xankəndidən geri döndükdən sonra üç gün müddətində “səfərinin nəticələri” barədə hesabat verməlidir.**

### Paşinyan İlham Əliyevin xəbərdarlığından sonra Qarabağa getməkdən qorxur və buna cürət etmir

Qeyd edək ki, Nikol Paşinyanın ayağı Azərbaycan torpaqlarına sonuncu dəfə ötən ilin oktyabrında, döyüşlərin qızğın getdiyi vaxtda dəyib. Kapitulyasiyadan sonra isə Azərbaycan erməni tərəfinə qarşı xəbərdarlıq edib və Ermənistan rəsmilərinin İrəvandan Xankəndiyə səfərlərinə qarşı ciddi ölçülər götürüləcəyini vurğulayıb. Bu sərt xəbərdarlıq əsasən, hökumət nümayəndələri ilə yanaşı, xarici işlər nazirinin Qarabağa Azərbaycanın icazəsi olmadan daxil olmalarından sonra baş verib.



İndi isə Paşinyan çox yəqin ki, Azərbaycan ərazilərində görünməkdən, Qarabağa səfər etməkdən qorxur və buna heç cürət də etmir. Lakin bunun yerinə o öz köməkçisini “ezam” etmək qərarını verir.

### Hələ də özlərinin “artsax” xəyallarında xam düşüncələrinə dalırlar



Görünür, bu fakt həm də sübut edir ki, İrəvandakılar hələ də Qarabağın kimin ərazisi olması reallığı ilə barışa bilmirlər və hələ də özlərinin “artsax” xəyallarında xam düşüncələrinə dalırlar. Amma bunun belə davam etməyəcəyini Azərbaycanın dövlət başçısı, Prezident İlham Əliyev də bir neçə dəfə vurğulayıb və barmağını silkələyib.



Nəticə çıxarmaq isə tam məsuliyyəti ilə məhz Ermənistan rəhbərliyinin üzərindədir. Yəni bu cür davam edəcəyi halda, onsuz da bərkiməmiş atəşkəs amili, İrəvanın imzalamaqdan imtina etdiyi sülh müqaviləsi bu dəfə daha böyük sual altında qala bilmək ehtimalını artırır. Qısacası, Azərbaycanın növbəti cavabı daha ağır və sərt ola bilər və bunu gözləmək kifayət qədər mümkündür.



***Rövşən RƏSULOV***

# İrəvan küçələrini gəzən iranlı “tibbi turistlər”

**Ermənilərin vaxtilə kiçik ticarətlə məşğul olub “böyük uğur qazanan”, indi isə iqtisadiyyat naziri səlahiyyətlərini icra edən Vahan Kerobyan adlı biri var. Hazırda o Ermənistanda tam səlahiyyətli nazir olmaq üçün özünü “oda-közə” vurur. Yalanları da ki, göz dəyməsin, necə deyirlər, ləyənnən...**

Deməli, ötən gün erməni saytlarına danışan Vahan Kerobyan bu gün ermənilərin sənaye sektorunda artımın 20-30 və ya hətta bəzi sahələrdə 50 faiz böyüdüyü qənaətinə gəldiyini bildirib. Məsələn, Vahan deyir ki, bu il ölkədə ötən ilin eyni dövrü ilə müqayisədə iqtisadi aktivlikdəki artım - 4,3, sənaye istehsalında - 2,3 ticarətdə - 7,4, tikintidə - 14, 3, digər xidmətlərdə isə 0.9 faiz artım olub...

Erməni iqtisadçılar isə təəccüb və “tərəddüdlə”, dünənə qədər küçə alveri ilə məşğul olan Vahandan bu rəqəmlərin haradan əldə etdiyini soruşurlar. Əsiində, başa düşmək olar, ermənidir, yalan danışa bilər, ... amma daha belə quyruqlusundan yox də...!



Deyim ki, Kerobyan işlədiyi sahənin dərin biliklisi olmasa da, amma dedikləri ilə bağlı “əsaslı faktlar” gətirir. Belə ki, Ermənistanda bu ilin ikinci yarısında turizmin 319 faiz artacağını deyən Vahan bunun artıq “start götürdüyünü”, yəni hazırda İrandan gələn çoxsaylı turistin İrəvan küçələrində gəzdiyini bildirir.

...Hə, indi nə olsun ki, Ermənistanın Mərkəzi Bankı araşdırma və anketləri, az qala, Kerobyanın gözünə soxaraq onu yalan danışmaqda ittiham edir. Yəni bank səlahiyyət icraçısını başa salmağa çalışır ki, yalan danışmaqla deyil, sən nə qədər “dartsan da” Ermənistana 600 nəfərdən artıq turist gətirdə “bilməyəcəksən”.

Qeyd edək ki, bu gün İrəvana gələn iranlı turistlərin əksəriyyəti, elə əslinə qalsa hamısı, koronavirusa qarşı peyvənd olunmaq üçün gələn turistlərdir. Qeyd edək ki, iranlıların əksəriyyəti İrəvana gəlişlərini “tibbi turist” kimi təqdim edirlər. Onu da deyək ki, bir müddət bundan əvvəl İrəvana turist kimi gələn Farnaz Faşihi adlı bir İran vətəndaşı sonradan özünün şəxsi “Facebook” səhifəsində bu ölkəyə gəlişinin səbəbini koronavirusa qarşı peyvənd olunması ilə əlaqələndirib.

Belə məlum olur ki, öz ölkələrində koronavirusa qarşı peyvənd olunmaqda çətinlik çəkən İran vətəndaşları, bunun ən asan yolunu Ermənistana üz tutmaqda görürlər.

...Bu gün ermənilərə tövsiyəmiz budur ki, rusların əl-ayağına düşüb Avropada effektli dərman kimi qəbul edilməsə də, onların “Sputnik V” peyvəndindən bolluca alın, yoxsa, o beş-altı iranlı “tibbi turist”dən də məhrum olarsınız...

***Ağasəf Babayev***

# İkiüzlü diplomatiya - ikili standartlar



**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində vəziyyətlə tanış olmaqda nəinki diplomatlar, siyasətçilər, hətta bütün dünya ictimaiyyəti maraqlıdır. Çünki, Azərbaycan mədəniyyətinin ermənilər tərəfindən dağıdılan nümunələrinin saysız-hesabsız olduğu həmin o işğaldan azad olunan ərazilər həqiqətləri əks etdirən ən doğru, ən dürüst, ən real mənzərədir. Bu baxımdan, həmin ərazilərə siyasətçilərin, diplomatların getməsi, vəziyyətlə tanış olması, reallıqların şahidi olması və həqiqətlərə daha yaxından bələd olması başadüşüləndir. Amma, görünür, bu ərazilərə getməkdən, bir növ həqiqətləri görməkdən, reallıqla tanış olmaqdan, bunu qəbul etməkdən imtina edənlər də var və başa düşülməsi, anlaşılması vacib olan məhz bunlardır.**

Azərbaycan hökumətinin dəvəti ilə bu il 9 iyul və 10 iyul tarixlərində Fizuliyə, oradan isə Şuşaya səfər edən xarici ölkələrin səfirləri sırasında ABŞ, Rusiya və Fransa səfirlərinin olmaması diqqəti cəlb edir. Həmin ölkələrin səfirləri Azərbaycan hökumətinin dəvətini qəbul etsələr də, nədənsə işğaldan azad olunan ərazilərə səfər edən xarici ölkələrin səfirləri arasında deyildilər. Məhz bu məqam özü də maraq, eləcə də sual doğurur və düşünməyə vadar edir ki, niyə məhz ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin səfirləri işğaldan azad olunan ərazilərə səfər edənlər arasında olmalı deyildilər axı? Belə görünür ki, həmsədrlər bir tərəfdən hələ də iflic vəziyyətində, "ölü" olan Minsk Qrupu formatında danışıqların bərpasına ümid edirlər, digər tərəfdən isə İrəvanla münasibətləri pozmaqdan, körpüləri yandırmaqdan, erməniləri narazı salmaqdan çəkinirlər.

Heç şübhəsiz ki, işğaldan azad olunan ərazilərə səfərdən imtina edənlərin məhz ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin səfirləri olmasını nəzərə alsaq görərik ki, bu, təsadüfi ola bilməzdi. Özü də hər üç ölkənin səfirinin bu səfərdə iştirak etməməsinə heç təsadüfi don geyindirmək olmaz. Hər üç ölkənin səfiri özlərini guya məsələyə neytral münasibət sərgilədiyini göstərdiyini nümayiş etdirməyə çalışır. Amma, əslində bunun, ermənilərlə münasibətlərin korlanmaması niyyəti ilə bağlı olduğu bəlli olur. Təsadüfi deyil ki, erməni cəmiyyəti xarici ölkə səfirlərinin işğaldan azad olunan ərazilərimizə səfərindən bərk qıcıqlanıblar və təbii ki, onların kürkünə birə düşməsi, bir qədər sadə dillə desək, narahat olmaları anlaşılandır. Ona görə anlaşılandır ki, əvvəla ermənilər işğal altında saxladıqları və nəticədə viran qoyduqları ərazilər barədə həqiqətlər dünya icytimaiyyətinin diqqətinə çatdırılır, digər tərəfdən xarici ölkə səfirlərinin Azərbaycanın işğaldan azad etdiyi ərazilərinə gedərək orada bu işğalı görüb qəbul etmələri ilə özlərini təklənmiş hesab edir, yalanlarının üzə çıxmasından çox sıxılırlar. Bir növ xarici ölkə səfirlərinə qoşularaq işğaldan azad olunmuş ərazilərə getməkdən imtina edən ölkə dəfirləri məhz elə erməni cəmiyyətinin bu sıxıntılarını, bu qıcıqlanmalarını nəzərə alıblar desək, yanılmarıq.

Əslində, ABŞ, Rusiya və Fransa səfirləri işğaldan azad olunmuş ərazilərə getməməklə ATƏT-in Minsk Qrupunun mahiyyətini, məsələnin iç üzünü göstərmiş oldular. Bu ölkələrin, yəni, Minsk Qrupunun həmsədr ölkələrinin səfirləri əslində, hamıdan əvvəl, hamıdan öndə işğaldan azad olunmuş ərazilərə getməli, gördüklərini ictimailəşdirməli, bütün dünyaya həqiqətləri, erməni işğalçılığını, vandallığını çatdırmalı olduqları halda, bundan imtina etdilərsə, bu qurumun hansı standartlara söykəndiyini, ikili standartlar siyasəti yürütdüyünü dərhal ifşa elədi. İndi dünya ictimaiyyəti tam şəkildə əmin oldu ki, məsələnin 30 il uzanmasına səbəb elə ATƏT-in Minsk Qrupu özü olub. Əmin oldu ki, bu qrupun həmsədrləri məsələni həll etməkdə, həqiqətlərin, reallıqların ortaya çıxmasında maraqlı deyillərmiş. Əksinə, onların erməni maraqlarından çıxış edərək münaqişənin mümkün qədər uzanmasına bacaqdıqca "tovhə" verməyə çalışdıqları, indi də bu maraqlardan çıxış etdikləri üzə çıxdı və bu əminlik daha da artdı.

Daha çox diqqəti cəlb edən məsələ isə odur ki, erməni lobbisinin ən güclü fəaliyyət göstərdiyi ölkələr məhz elə Fransa, ABŞ, bir də Rusiyadır və məhz bu ölkələrin səfirlərinin işğaldan azad olunmuş ərazilərə səfər etməkdən imtina etməsində bu amili də nəzərə almaq lazımdır. Aydın olur ki, həmsədr ölkələrin səfirləri ilk növbədə erməni lobbisini bir növ, incik salmaq istəmədilər. Çünki, həmin o sadalanan üç ölkədə kifayət qədər təsir imkanlarına, hətta seçkilərə belə təsir etmək imkanına malik olan erməni lobbisini qıcıqlandırmağa cəsarət etmədilər, əvəzində haqqa, ədalətə göz yumdular, görməməzlikdən gəlməyi üstün yol hesab etdilər. Yəni, səfər etməkdən imtina olunması ilə, dünya ictimaiyyətinə guya neytrallığını, erməni cəmiyyətinə, erməni lobbisinə isə onların əksinə olmadıqlarını nümayiş etdirmək niyyəti güddülər. Bu isə siyasi ikiüzlülükdən başqa bir şey deyildi.

Bu səfər zamanı həmsədr ölkələrin səfirlərinin digər ölkə səfirlərinə qoşulmamaları, səfər etməkdən imtina etmələri də əslində Azərbaycan xeyrinə oldu. Əvvəla ona görə ki, ilk növbədə Azərbaycanın dost və düşmən ölkələrin hansılar olduğu barədə əminliyi daha da artdı. Hansı ölkələrə ümud etmək, hansı ölkələrlə əlaqələri genişləndirmək, əməkdaşlığı artırmaq, tərəfdaş olmaq barədə Azərbaycan tam əmin oldu. Digər tərəfdən, ermənilərin, Ermənistan tərəfinin az qala 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarının işğaldan azad olunması məsələsinin niyə bu qədər uzanması və bu məsələdə hər üç həmsədr ölkənin ikili standartlar tətbiq etdiyini bütün dünya gördü və buna əmin oldu. Onların bu qeyri-diplomatik demarşısını, cidanı muvalda gizlətmək olmadığı kimi ört-basdır etmək artıq heç bir şəkildə mümkün deyil. Çünki, bütün dünya ictimaiyyəti bu ikiüzlülüyün son dəfə də şahididir.

Sual oluna bilər ki, münaqişənin əvvəllərində əhalisi azərbaycanlılardan ibarət olan Şuşanın, həmçinin bu şəhərə, Şuşaya səfər edilməsinin ermənilərə nə aidiyyatı ola bilərdi axı? Niyə yalnız bu üç ölkə səfiri bunun ermənilərə aid olduğu qənaətinə gələsi oldu? Yəni, ATƏT-in Minsk Qrupunun bu üç həmsədr ölkəsinin səfiri Şuşaya getməyi niyə ermənilər üçün təhqir hesab olunacağını zənn etdi? Eyni zamanda niyə Ermənistan cəmiyyətində bu səfərdən qıcıqlandı? Zənnimizcə, bu suallar özləri bir-birini cavablandırır. Beləki, hələ səfərdən öncə bundan imtina edən üç ölkə səfirinin erməni cəmiyyətində bu səfərin rezonans doğuracağını hardan bilə bilərdi, əgər əlaqə, rabitə olmasaydı və hətta rəy bilinməsəydi? Deməli, erməni cəmiyyətinin fikri, reaksiyası əvvəlcədən ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin səfirlərinə, həmin ölkələrə bəlli idi və bundan da ehtiyatlandılar. Bir sözlə, həqiqəti, ədaləti deyil, erməni cəmiyyətinin maraqları meyar hesab olundu və bununla da dünyaya ali dəyərlər barədə nağıllar danışan üç nəhəng ölkənin səfirləri, həm də ilə elə həmin ölkələrin özləri ədalətsizlik, ikili standartlar sərgilədilər. Çünki, hansısa ölkənin səfiri təmsil etdiyi ölkənin təlimatı olmadan, özbaşına heç bir hərəkət etmir və sözün geniş mənasında öz ölkəsini təmsil edir.

Bəli, ABŞ-ın, eləcə də Fransanın açıq şəkildə ermənipərəst mövqe nümayiş etdirdiyinin dəfələrlə şahidi olmuşuq və indi bu ölkələrin nümayiş etdirdikləri mövqe sadəcə özlərini ifşa etmiş oldu. Məsələnin daha bir maraqlı tərəfi də ondan ibarətdir ki, indi ermənilərin xəyanətkar xislətinə, erməni cəmiyyətinin, Ermənistan dövlətinin onlara xəyanət etdiklərinə son dərəcə əmin olan Rusiya hökumətinin ölkəmizdəki səfiri niyə digər ölkələrin səfirlərinə qoşulub işğaldan azad etdiyimiz ərazilərə səfər etməkdən imtina etdi? Axı bu ölkə işğaldan azad olunan ərazilərimizə sülhməramlı göndərib və indi münaqişənin həllinin, atəşkəsin qarantı kimi çıxış edir. Bu addım ATƏT-in Minsk Qrupuna, bu qrupun ikili standartlarına dırnaqarası sədaqətlilik nümayişi idi yoxsa? Hər bir halda bu üç məlum ölkə səfirinin işğaldan azad olunmuş ərazilərdə olmaması ATƏT-in Minsk Qrupunun həqiqi simasını, ikili standartlar siyasəti yürütməsini, ədalətsiz yanaşmasını, Ermənistanın tərəfini tutmasını, özü də haqsız olan ölkənin mövqeyini müdafiə etməsini, ikiüzlü diplomatiya sərgilədiyini isbatlayır.

*İnam Hacıyev*



## ...Ermənistan Rusiyasız "yox olub gedəcək"

**Ötən gün erməni saytlarına danışan "Regnum" xəbər agentliyinin baş redaktoru Modest Kolerov ermənilərə bir daha anladıb ki, Rusiya ilə ittifaqda qalmaq Ermənistanın dövlət olaraq yaşaması üçün yeganə yoldur. Onun sözlərinə görə, Ermənistan, nəhayət bunları dərk edib, özünü qorumalı və heç kimdən ianə almamağa çalışmalıdır.**

Deyim ki, Kolerovun ermənilərə verdiyi sonrakı məsləhətləri daha "dəyərlidir". Bu gün Rusiyanın Qafqazdakı əsas vəzifələrindən biri Ermənistanı "dövlət intiharından" qorumaq olduğunu deyən rusiyalı redaktor bölgədə güc nisbətinin pozulmasının Rusiya üçün də yaxşı hal olmadığını, bunun Kreml üçün bir növ təhdid olduğunu deyir. Kolerov burada ürəyiyananlıq edib bu gün Ermənistanın zəlil gündə olduğunu etiraf edir. Onun fikrincə, vəziyyət hətta o həddədir ki, Ermənistan, buna tam hüququ olsa da, sərhədlərini belə qoruya bilmir. Yəni vəziyyətlə bağlı bütün məsələləri Azərbaycan diktə edir. Ona görə də, hazırda Ermənistan sərhədlərinin Rusiya tərəfindən qorunmasını istəyir.

Qeyd edək ki. erməni istəklisi olan Kolerov bu arada Qarabağsız Ermənistanın strateji, geosiyasi çəkisinin sıfıra meylli olduğunu bildirir. Rus redaktor, yaxınlarda Ermənistanda geniş miqyaslı köçün başlaya biləcəyini də istisna etmir. Onun ehtimalına görə, ölkədəki tarazlığı qorumaq iqidarında olmayan Paşinyanın üzündən ölkədə qalsa da, ancaq təqaüdçü və bürokratlar qalacaq.







...Burada Gürcüstan, Türkiyə və Azərbaycan arasında keçiriləcək birgə hərbi təlimlərə diqqət çəkən Kolerov Ermənistanın "tək qalıb" özünü müdafiə edə bilməyəcəyini bildirir. Onun fikrincə, ermənilərin gürcüləri özlərinə yaxın müttəfiq bilmələri illüziyadır.

...Bu gün Ermənistan özünü və ərazisini qorumaq üçün ancaq Rusiya ilə birlik dövlətinə girməsi lazımdır. Bəs, belə olan halda problem nədir? Təbii ki, Ermənistanda anti-Rusiya proqramı ilə hakimiyyətə gələn bir adamın-Nikol Paşinyanın rəhbərlik etməsi.

Kolerova görə, hazırda Paşinyan Rusiyada, müstəsna olaraq, Ermənistan lideri kimi qəbul olunduğu anlasa da, amma Kremlin ona inamının olmadığını yaxşı bilir. Məhz elə bu da onun ciddi qərarlar qəbul etməsinə mane olur. Üstəlik, Paşinyan hələ ki, heç bir tarixi qərar verməyəcək. Hazırda baş nazir Rusiyadan qoruma, kömək almaq, məsuliyyəti Moskvaya verməklə gözlənilən hər hansı bir zərbədən atlamağı planlaşdırır. Bununla yanaşı, o Rusiyanın əvəzinə Fransa ilə strateji müttəfiq olacağına ümid bəsləyir. Rusiyalı siyasətçinin dediyinə görə, Moskvada Ermənistanı izləyənlər bunu artıq yaxşı başa düşürlər.

***Ağasəf Babayev***

# İngilisdilli əyalət tribunası

## Yaxud "Soros"un mənəvi qızı Sevinc Osmanqızının mənəviyyatsızlığı

Son dönəmlərdə xaricdə erməni diasporunun, eləcə də antimilli dairələrin birbaşa təbliğat ruporuna çevrilən radikal qruplar internet resurslarından istifadə edərək çirkin siyasi maraqlarına uygun spekulyasiyalar edirlər. Bu baxımdan ABŞ-da fəaliyyətinin birbaşa ermənilərlə sinxronlaşdıran, ingilisdilli əyalət tribunası Sevinc Osmanqızı daha fəallaşıb. Bu, heç də təəccüb doğurmur. Çünki bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan bütün rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Bu, o Sevinc Osmanqızıdır ki, bu gün sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirən, əvəzində filan qədər dollar, avro ələ edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satan satqınçılığın gerçək üzü Sevinc Osmanqızıdır! Bu məkrli ssenarilərini Sevinc Osmanqızı vasitəsə dövriyyəyə buraxmaları da təsadüf sayılmamalıdır. Və ingilisdilli əyalət tribunası olan S.Osmanqızını nə qədər vəhşi, faşist adlandırsaq da, ondan da ağır bir söz axtarışına çıxdım. Tapdığım söz insan yox, İBLİS oldu. Bəli, S.Osmanqızı iblisdir. Çünki hətta "Sarkisyan belə, etiraf edir ki, Xocalıda insanları bilə-bilə qırıblar"- deyirsə, bu iblis və onun kimilər - orduxanlar, fəxrəddinlər, vidadilər, yunuslar, xədicələr və sırası, mənşəyi bu ünsürlər erməni təəssübkeşləri bunu anlamır. Çünki bu qərəzli, üfunət dolu, idbar, anti-Azərbaycan, yalnız qara-qura ilə məşğul olan bu iblis xislətlilərin hamısı Avropada oturub gecə-gündüz Azərbaycan əleyhinə aksiyalar təşkil etməklə hökumətin əleyhinə fikirlərlə daha çox qrant almaq davası aparmaqdadır. Və sonda bu satqınlar bilməlidirlər gec-tez xalqın qarşısında ən ağır cəzalarını alacaqlar, özü də bağışlanılmayan cəzalarını!



### "Soros"un mənəvi qızı Sevinc Osmanqızının mənəviyyatsızlığı

"Soros"un mənəvi qızı sayılan Sevinc Osmanqızının hazırda irəli verilməsi bu siyasi oyunun mahiyyətini çılpaqlığı ilə ortaya qoymaqla bir daha onun məqəviyyatsız və əxlaqsız olduğunu sübut edir. Əgər bu gün ölkəmizdə olan və ölkəmizə gələn diplomatlar, xarici ölkələrin mətbuat nümayəndələri işğaldan azad olunmuş torpaqlara səfərləri zamanı erməni vəhşiliklərinin şahidi olduqlarını deyirlərsə, vətənini, dövlətini, hətta ailəsini satan "Soros"un mənəvi qızı Sevinc Osmanqızıdan hansı Vətən, torpaq "sevgisi" gözləmək olar? Əgər İsrail dövlətinin Azərbaycandakı səfiri Corc Dik Şuşada olmaqdan şərəf duyduğunu deyirsə, Sevinc Osmanqızı isə illərdir ki, sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirərək əvəzində filan qədər dollar, avro əldə etməklə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə satmaqla məşğul olmağı "şərəf" hesab etməklə, bir daha satqınçılığın gerçək üzünü bir daha nümayiş etdirir. Belə bir deyim var: "xəyanət ölümdən betər bir şeydir və bunu sadəcə anlamaq lazımdır". Lakin Sevinc kimiləri üçün isə, xəyanət etmək ən adi bir məsələdir və onun bunu anlamağı isə...Bir də dərk etməyə onun nə əqli, nə də əxlaqı imkan vermir. Çünki illər boyu rusun, farsın, erməninin, ingilisin, amerikalının, norveçlinin maşası, quruqbulayanından ancaq bea bir əxlaqsızlığı, mənəviyyatsızlığı gözləmək olar. Elə bədəxtlik də bundadır. S.Osmanqızı Vətəni bir evə dəyişən satqın iblisdir. S.Osmanqızı aşırı qədər satqındır ki, hətta "20 Yanvar, 20 noyabr, Xocalı və xalqımızın başına gətirilən digər faciələrdə olanları bilmək haqqımız və borcumuz deyil" deməsi, doğurdan da, ermənidən pis erməni olmağın sübutu deyilmi? Bu gün S.Osmanqızını, vəhşi, faşist adlandırsaq da belə bu çox yumuşaq çıxır. Çünki bu iblis Xocalı faciəsi ilə bağlı "olanları bilmək borcumuz və haqqımızdır" deyərkən, bir daha Sarkisyan, Paşinyan kimi vəhşi olduğunu sübut edir. Ancaq bu yerdə bir məqamı da vurğulamaq istərdim ki, Sarkisyan həmin hadisələr zamanı hətta belə bir etiraf edərək bildirmişdi ki, Xocalıda insanları biləbilə qırıblar. Artıq S.Osmanqızı kimilərə faktları sübut etməyə ehtiyac yoxdur. O bütün Azərbpycan xalqı qarşısında cavab verməlidir. S.Osmanqızı kimilərin beynəlxalq siyasi qüvvələr tərəfindən Azərbaycana qarşı istifadə olunan alətə çevrilən, erməni itinin yalağında yalağlananlar bir həqiqəti unutmamalıdırlar ki, Vətənin halal çörəyinə kəm baxanların gözünə qan gələr və özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri isə tarix heç vaxt bağışlamır. Çünki bu, təkcə səhv deyil, həm də cinayət və xəyanətdir.

### Ermənidən betər əxlaqsızın söyüş ritorikası...

Hər kəsi öz adı ilə çağırmaq lazımdır. Belə ki, həddini aşanda, istər qadın istər kimsə... əxlaqsız deyəndə başlayırlar ki, heç qadın da qadına belə söz deyər? Bəli, qadın! Sevinc Osmanqızı kimiyə yox! Azərbaycan dövlətinə qarşı ermənilərdən də betər düşmənçilik mövqeyi sərgiləyən ələ alınmış belə bir əxlaqsızın mənəviyyatını tamailə qrantlara satana yox! S.Osmanqızının cəsusluq fəaliyyəti özlərini "siyasi mühacir" adlandıran Orduxanlı, Vidadi İskəndərli, Qurban Məmmədli və ... kimi ələ alınmışları daha çox söyüş söyməyə, dövlətimizin əleyhinə kəskin çıxışlar etməyə çağırışları, hər gün bu adamları qorxudaraq "sizlər susmamalısınız, daha çox söyüş söyməlisiniz, izləyiçilərinizin sayını artırmalısınız" deməsi bir daha onun qadın yox, ermənidən betər erməni olduğunu sübut edir.

Eyni zamanda, bu ingilisdilli əyalət tribunası S.Osmanqızı anlamalıdır ki, Azərbaycanda onlara yer yoxdur. Onların əsl mahiyyəti alət olmaqdır və onlar öz istifadə müddətlərini çoxdan bitiriblər.

**Rəfiqə HÜSEYNOVA**

---

# Mühacir biznesi ifşa olunur: dələduzlar və qurbanlar

## Yaxud, gənc "liberallar" "siyasi təzyiqlərə məruz qalan" azərbaycanlıları necə "xilas" edirmişlər



**Məlum olduğu kimi, Azərbaycan Respublikasının Baş prokurorluğunun İstintaq idarəsində ölkə vətəndaşlarının qanunsuz şəkildə xarici ölkələrdə "siyasi sığınacaq" almaları faktları ilə bağlı cinayət işi açılıb.**

SİA xəbər verir ki, strukturun mətbuata yaydığı məlumatda bildirilir ki, "No Border Travel Agency" MMC-nin rəhbəri Ramin Hacılı, "Gəncliyin Elmi-Mədəni İnkişafı" ictimai birliyinin sədri Sərdar İsgəndərov, "Yes Travel" MMC-nin vəzifəli şəxsləri Sərxan Abdullayev, Üzeyir Bağırlı, "HMH Baku Travel" MMC-nin rəhbəri Nərminə Dadaşova, Zakir Əmirov, Əziz Səfərəliyev, Akif Əsədov külli miqdarda qazanc əldə etmək məqsədi ilə ABŞ, Kanada və Avropa ölkələrinə səfər etmələri üçün Azərbaycan Respublikasının vətəndaşlarına viza alınması və səfər etdikləri ölkələrdə mühacir statusu alaraq yaşaya bilmələri üçün iş yerindən arayış, bank hesabından çıxarış, daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnu təsdiq edən sənədlər, hüquq-mühafizə orqanlarına çağırış məktubu, guya xəsarət almalarına dair tibbi arayış və digər hüquq verən rəsmi sənədləri saxtalaşdırıb satmaqla, onlara müraciət etmiş şəxslərin qanunsuz miqrasiyalarını təşkil etmişlər.


Hörmətlə,
Əli Kərimli
Sədr
Azərbaycan Xalq Cəbhəsi Partiyası

Qeyd edilənlərlə bağlı əvvəllər eyni xarakterli əməllərə görə dəfələrlə məhkum olunmuş Ramin Hacılı, eləcə də yuxarıda adları çəkilən digər şəxslər Cinayət Məcəlləsinin 178.3.1-ci (mütəşəkkil dəstə tərkibində dələduzluq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə, barələrində müvafiq olaraq həbs və başqa yerə getməmək haqqında iltizam qətimkan tədbirləri seçilmişdir. Hazırda cinayət işi üzrə istintaq davam edir.

### Normal həyat şəraitlərini qoyub, rahat qazanc əldə edəcəklərini düşünən "aldanmış kəvakiblər" sonradan ayılanda isə artıq çox gec olub


MÜSAVAT PARTİYASI
AZƏRBAYCAN RESPUBLİKASI MÜSAVAT PARTİYASI SALYAN RAYON TƏŞKİLATI
XASİYYƏTNAMƏ
Yadigar Sadıqlı

Lakin bununla yanaşı qeyd etmək yerinə düşərdi ki, insanları aldadaraq, saxta sənədlərlə, eləcə də ölkəmizin maraqlarına zidd olan yalanları, böhtanları iictimailəşdirməklə xəyanətkar əməllər törədənlər haqqında məlumatlar ilk dəfədir üzə çıxmır.

Maraqlıdır ki, hazırkı dövrə qədər, yəni bir neçə ildir ki, "siyasi mühacir" adı altında xarici ölkələrə göndərilənlərin bir çoxları sonradan getdikləri ölkələrdə sahibsiz qalıblar, habelə onların əksəriyyəti yenidən Azərbaycana deportasiya olunublar. Bu fakt da sübut edir ki, sənədləri, şəxsiyyətləri araşdırılan həmin "siyasi mühacirlər" əslində heç bir siyasi təzyiqlərə, təqiblərə məruz qalmayıblar. Yəni mitinqlərdə şəkillər çəkdirib, sonradan bunun vasitəsi ilə "təzyiqlərə" məruz qaldıqlarını iddia edənlər öz qanunsuz əməllərinin qurbanlarına çevriliblər. Daha doğrusu, onlar Azərbaycanda radikal müxalifət təmsilçilərinin, partiya sədrlərinin və saxtakar QHT-lərin torlarına düşməklə sadəcə, aldadılıblar. Normal həyat şəraitlərini qoyub, rahat qazanc əldə edəcəklərini düşünən "aldanmış kəvakiblər" sonradan ayılanda isə artıq çox gec olub.

### AXCP sədri Əli Kərimlinin, Müsavat partiyasının başqanı Arif Hacılının da bu kimi məsələlərdə izləri var

Əgər bu gün müxalifət fəalı Ramin Hacılının adı artıq neçənci dəfədir ki, bu kimi məsələlərdə hallanırsa, biz AXCP sədri Əli Kərimli, Müsavat partiyasının başqanı Arif Hacılı və digərləri barədə dəfələrlə eyni faktların şahidləri olmuşuq.

Özü də bunu biz deyil, məhz xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı jurnalistlər də danışıblar, yazıblar. Nəticədə belə bir məsələ də ortaya çıxır ki, əslində, bənzər şəbəkələr daha dərindən araşdırılmalı və saxta sənədlər vasitəsi ilə insanları aldadıb xarici ölkələrə göndərən şəxslər ifşa olunmaqda davam edilməli, onların anti-Azərbaycan fəaliyyətlərinə son qoyulmalıdır.

**Rövşən RƏSULOV**

# Rus ekspert: İntiqamdan söhbət belə gedə bilməz. Qarabağ mövzusu bağlıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Maria Zaxarova, Azərbaycan ilə Ermənistan arasındakı sərhədin sonrakı demarkasiyası və delimitasiyası ilə bağlı işlərə ən qısa zamanda başlamağın zəruriliyindən danışdı. Və bəlkə də bu proses Ermənistan ordusundakı təmizlənmələr başlayandan sonra daha sürətli gedəcəkdir. Bir çox ekspertlər erməni generallarının nümayəndələrinin Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti qızışdırmağa çalışaraq açıq təxribatla məşğul olduqlarını dəfələrlə qeyd ediblər.***





8 iyulda vəzifəsindən azad edilən Ermənistan Silahlı Qüvvələrinin 3-cü ordu korpusunun komandiri Qriqori Xaçaturov xüsusilə canfəşanlıq edirdi. Erməni politoloq Suren Surenyantsın Sputnik Armenia-ya verdiyi müsahibədə qeyd etdiyi kimi, onun istefası siyasi bəyanatlar və siyasi mövqeyini qətiləşdirmə ilə bağlıdır.

Onsuz da keçmiş korpus komandiri Qriqori Xaçaturov fevral ayında digər yüksək rütbəli hərbi personalla birlikdə hökumətin istefasını tələb edən bir bəyanat imzalamışdı. Sonra yenidən Nazirlər Kabinetinin istefasını tələb edərək ayrıca bir bəyanat verdi. Atası, Ermənistan Baş Qərargahının keçmiş başçısı Yuri Xaçaturov erkən parlament seçkilərində Robert Köçəryanın rəhbərlik etdiyi Ermənistan blokunu dəstəklədi.

Rusiyalı politoloq, SONAR-2050 layihəsinin analitik bürosunun rəhbəri İvan Lizan "Caliber" analitik informasiya mərkəzinə bildirib ki, hərbçilərin siyasi tələblər irəli sürdüyü vəziyyət Ermənistan üçün qəbuledilməzdir: "Bəli, qeyd etmək lazımdır ki, Nikol Paşinyan ordunun böyük bir müqaviməti ilə qarşılaşdı. Ancaq Paşinyan parlamentdə yenidən seçilməyi və mövqeyini gücləndirilməyi bacardı və "məxməri inqilab"dan "polad inqilab"a keçid ediləcəyini bildirdi. Bu, o deməkdir ki, o, bütün tənqidçilərini və rəqiblərini hakimiyyətin iyerarxiyasından kənarlaşdırmağa çalışacaqdır. Və buna görə ilk olaraq hərbçilər zərbə altında qalır".

Ekspert deyir ki, ordudakı təmizləməyə paralel olaraq, Nikol Paşinyan Rusiya Federasiyasının köməyi ilə silahlı qüvvələrdə islahatlar aparacaq. "Bunu ümumiyyətlə seçkilərdən sonra Rusiyaya ilk səfəri və Moskva ilə hərbi-siyasi əməkdaşlığın intensivləşməsi (hələ ki ritorika səviyyəsində) sübut edir"- İvan Lizan bildirib. Politoloq bəzi suallara da aydınlıq gətirib:

***- Ermənistan ordusunun islahatı intiqam almaq məqsədi güdürmü?***

- Xeyr, belə düşünmürəm. Qarabağ mövzusu bağlandı. Nikol Paşinyan tənqidləri minimuma endirməyə və gücünü artırmağa çalışır. Bunu etmək üçün orduda islahatlar aparmaq istəyir. Bütün məsələ budur.

***- Erməni mütəxəssislər Qriqori Xaçaturovun istefasından sonra digər işdən çıxarılmaları da istisna etmirlər.***

- Bəli, düşünürəm ki, istefalar seriyası Paşinyan ordunu rəqiblərindən təmizləyənə qədər davam edəcək. Və bundan sonra dediyim kimi, yeni bir ordu qurmağa çalışacaq. Məhdud heyəti, intellektual, maddi və digər mənbələrin çatışmazlığını nəzərə alaraq nə dərəcədə müvəffəq olacağı başqa bir sualdır. Bu ehtiyata buraxılan hərbçilər daha sonra nə edəcəklər? Bəlkə də siyasətə gedəcəklər və bu, Nikol Paşinyana əks-təsir göstərəcək.

Ermənistan vətəndaşlarının pis seçkilərdə seçim etdiyini unutmamalıyıq. Nikol Paşinyan Ermənistan üçün "biabırçı sülhün", Robert Köçəryan isə Ermənistan üçün "daha da biabırçı bir sülhlə sona çatacaq mümkün yeni müharibənin" şəxsiyyətidir. Ermənilər özləri üçün çox xoş olmayan bir seçim etdilər, amma indiki şərtlərdə bu, yeganə doğru seçimdir.

***- Vacib məqam Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Sizcə, ordu Nikol Paşinyanın nəzarətində olduqdan sonra belə bir müqavilə imzalana bilərmi və nəqliyyat dəhlizlərinin açılması, sərhədlərin demarkasiyası və delimitasiyası prosesləri sürətlənəcəkmi?***

- Düşünürəm ki, ehtimal avtomatik olaraq artır. Nikol Paşinyan, tutaq



ki, rəqibləri nə qədər "əzirsə", hərtərəfli sülh sazişlərini imzalamaq şansı bir o qədər çoxdur. Ancaq vaxtı haqqında danışmaq, əlbəttə, çətindir.

Mənə elə gəlir ki, Nikol Paşinyana ölkəsindəki vəziyyəti sabitləşdirmək üçün bir fürsət verməyimiz lazımdır. Və sonra Moskvanın vasitəçiliyi ilə Azərbaycanı maraqlandıran bütün məsələlər həll olunacaq: sərhədlər, nəqliyyat dəhlizləri və s.



***Tərcümə - Elçin Bayramlı***

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**13 iyul**

**QARABAĞ AZƏRBAYCANDIR!**

## İtaliya 53 ildən sonra ikinci dəfə Avropa çempionu oldu!




İyunun 11-dən iyulun 11-dək Avropanın 11 ölkəsində keçirilən AVRO-2020-yə yekun vurulub. SİA xəbər verir ki, 31 gün davam edən sayca 16-cı Avropa çempionatının həlledici qarşılaşması Londondakı “Uembli” stadionunda baş tutub. Tarixində ilk dəfə qitə çempionatının final oyununda qüvvəsini sınayan İngiltərə yığması doğma arenada İtaliyanı qəbul edib. Görüş erkən qolla başlayıb. Artıq 2-ci dəqiqədə Lük Şou həm finalda, həm də özünün millidəki qol hesabını açıb.

Buraxılan qoldan sonra təşəbbüsə ələ alan İtaliya yığması böyük üstünlüyə yiyələnib. Lakin apenninlilərin aramsız hücumları yalnız ikinci hissənin ortalarında bəhrəsini verib. Qarşılaşmada ikinci qolu da müdafiəçi vurub. Leonardo Bonuççi hesabda tarazlıq yaradıb. Bu, görüşdəki son qol olub. Əlavə vaxtında tarazlığın pozulmadığı finalın və AVRO-2020-nin qalibini penaltilər seriyası müəyyənləşdirib.

Oyunsonrası “lotereya”da daha dəqiq olan italyanlar Avropa çempionu tituluna sahib çıxıb. Bu, 1968-ci ildə də qızıl medala yiyələnən İtaliya yığmasının ikinci qitə çempionluğudur.

Finalda qol vura bilməyən Harri Keyn bombardirlər yarışında liderlərə çatmayıb. Portuqaliyalı Kriştiano Ronaldo və çexiyalı Patrik Şik hərəyə 5 topla AVRO-2020-nin ən məhsuldar oyunçuları olub. Qeyd edək ki, növbəti Avropa çempionatı 2024-cü ildə Almaniyada keçiriləcək.

## “Delta ştammı” ilə bağlı qapanmalara gedilir?

**DİQQƏT!**

“Delta ştammı hal-hazırda Azərbaycanda aşkar olunmayıb. Ancaq bu o demək deyil ki, bu ştammın Azərbaycana gəlməsi ləngiyə bilər. Çünki, qonşu respublikaların hamısında bu ştamma tutulmaların qeydiyyata alınması mövcuddur”. Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Namiq Nəbiyev deyib. Onun sözlərinə görə, buna baxmayaraq son günlər yoluxma sayında artım müşahidə olunsa da, qapanmalara yox açılışa doğru getmişik: “İnşallah bu açılışların davam gələr. Yenə də insanlarımız özünü gözləməlidir. Qapanma olması ilə bağlı isə rəsmi mənbə yoxdur. Çünki, qapanma ilə bağlı gedişatdan və xəstəliyin artıb-azalmasından asılı olaraq qərar verilə bilər. Düşünürəm ki, tələsmək lazım deyil”.



Məsələ ilə bağlı sosioloq Lalə Mehralı da münasibət bildirib: “Bu barədə qarşıma çox məlumat çıxsa da, heç biri hələ ki, rəsmi deyil. Yəqin ki, bu dəqiqləşəcək. Amma bütün hallarda istəməzdik ki, qapanmalar olsun. Lakin, biz qapanmalar sayəsində normal həyata dönüş etmişik”.

Sosioloq sözlərinə belə davam edib: “Qapanmaları həyata keçirərkən metroları və digər ictimai nəqliyyat vasitələrinin fəaliyyətini də nəzərə almaq lazımdır. Metro fəaliyyətini dayandırdıqda insanlar bir il yarım müddətində çox əziyyət çəkdi. Bütün bunlar düşünülməli, avtobus sayları artırılmalıdır. Bu kimi hallarda insanların rahatlığını düşünərək qapanmalara getmək lazımdır. Amma keçən dəfəki kimi metro bu qədər bağlı olacaqsa, insanlar bu qədər əziyyətlə işə gedib gələcəksə, təbii ki, narazılıqlar da çox olacaq”.

“Düşünürəm ki, toylara icazə verməzdən əvvəl düşünülməli idi ki, adi gündə restoranda 100-150 nəfər zatən olur. Amma toy üçün maska tələb edirlər. Gündəlik gedilən restoranda isə bu tələb olunmur. Qərar verdikdə bu təzad nəzərə alınmalıdır. Belə şeylər insanlarda qıcıq yaradır”.

***Ayşən Vəli***

## Binəqədidə məktəbdən oğurluq edən şəxs tutulub



Binəqədi rayonunda məktəbdən oğurluq edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyulun 7-də Binəqədi qəsəbəsindəki tam orta məktəblərin birindən 6 çilçıraq, soyuducu və kombi aparatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini F.Cahangirov Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Oğurluqda iştirak edən bir nəfərin isə şəxsiyyəti müəyyən olunub. Faktla bağlı araşdırma aparılır.

## “AzerTelecom” Bakı Olimpiya Stadionunda yüksək səviyyəli bağlantı xidməti ilə “Eurovision Services”-ə dəstək olub

“AzerTelecom” Bakı Olimpiya Stadionunda keçirilmiş beynəlxalq əhəmiyyətli idman tədbirlərinin yayımlanması üçün “Eurovision Services”-ə stadion üzrə bağlantı xidməti təminatçısı olmaqdan böyük qürur hissi keçirir. “AzerTelecom”un “Eurovision Services” üçün təqdim etdiyi bağlantı xidməti bu yaxınlarda Bakıda keçirilmiş dörd beynəlxalq futbol matçının canlı yayımlanması zamanı istifadə edilib. Şirkətin ən müasir telekommunikasiya xidmətləri yerli və beynəlxalq müştərilərə yüksək keyfiyyətli xidmət təmin etməklə ölkəmiz üçün böyük əhəmiyyətə malik müxtəlif tədbirlərin həyata keçirilməsinə imkan verib.

“AzerTelecom” şirkətinin Baş icraçı direktoru Ana Nakaşidzenin sözlərinə görə, “AzerTelecom” şirkəti artıq bir neçə ildir ki, beynəlxalq idman tədbirləri üçün bağlantı xidmətləri təminatçısı kimi çıxış edir.

“Heyətin hərtərəfli hazırlığı və əzmi bütün səviyyələrdə uğur qazanmağımıza imkan verir. “AzerTelecom” Bakıda keçirilən mühüm beynəlxalq idman tədbirlərində yüksək keyfiyyətli və dayanıqlı xidmətlərin göstərilməsi istiqamətində etibarlı tərəfdaş olduğunu sübut edib. Əldə etdiyimiz bu unikal təcrübəyə arxalanaraq növbəti illərdə yeni çağırışları və müvəffəqiyyəti gözləyirik” - deyə Ana Nakaşidze bildirib.

“Eurovision Services” şirkətinin Satınalmalar üzrə meneceri Nicolas Gillen bildirib ki, 2021-ci ilin yazında Bakıda stadion üzrə bağlantı xidmətinin təmin edilməsi üzrə layihənin icrasına başladığımız gündən “AzerTelecom” bütün ehtiyaclarımızın qarşılanması üçün çevik olmuşdur. Bütün heyət layihə boyu həssaslıq nümayiş etdirmişdir və biz onlarla çalışmaqdan böyük zövq almışıq.”

“AzerTelecom” haqqında: “AzerTelecom” Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan “Bakcell” şirkətinin törəmə müəssisəsidir. “AzerTelecom” Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir.

“Eurovision Services” haqqında: “Eurovision Services” dünyada ən böyük hibrid peyk və fiber ötürücü şəbəkələrdən birinə malik olan və dünyanın ən böyük canlı idman tədbirləri üçün yayım həlləri təqdim edən aparıcı şirkətlərdən biridir. Biz qlobal transmissiya ilə bağlı ən vacib ehtiyacları qarşılamaq üçün müştəri istəklərinə uyğun hərtərəfli yayım (başdan sona- end-to-end) həllərin təqdim edilməsi üzrə ixtisaslaşmışıq.

## ŞOK: Ölüm Vadisində rekord istilik qeydə alındı!

Amerikalı alimlər Ölüm Vadisində 54.4 ° C istilik rekordu qeydə alıblar. “high-tech.fm”-in yazdığına görə, tədqiqatçılar temperaturun bundan sonra daha da arta biləcəyi barədə xəbərdarlıq edirlər. Ölkənin ən isti, ən quru yeri olan və dəniz səviyyəsindən ən aşağıda yerləşən Kaliforniyanın Ölüm Vadisində istilik 54.4 ° C-yə çatıb. Bu, bölgədəki ən yüksək temperatur və bütün planetdə qeydə alınan ən isti temperaturlardan biridir.

Alimlər növbəti həftələrdə temperaturun daha bir neçə dərəcə arta biləcəyini və 1913-cü il iyulun 10-da Ölüm Vadisində qeydə alınan 56,7 ° C mütləq rekordu qıracağını ehtimal edirlər.

Temperatur ABŞ-ın Milli Meteorologiya Xidmətinin Nevada ştatı ilə sərhəd yaxınlığında Furnace Creek ərazisindəki avtomatik meteoroloji stansiyası tərəfindən qeydə alınıb. Bu göstərici yoxlanılacaq. Belə hallarda düzgün və dəqiq işləməli olan cihazların əlavə yoxlanılması lazımdır.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**